

Milli azadlıqdan şirin nemət yoxdur!


YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

09 iyul 2024-cü il, çərşənbə axşamı
№ 119 (6705)
Qiyməti 60 qəpik


# Türk dünyasının Şuşa Zirvəsi!




Bax səh. 2

## Azərbaycanın öncül təşəbbüsü...

Bax səh. 3

## TDT-nin gələcək strateji yol xəritəsi...
# Qarabağ Bəyannaməsi



Bax səh. 3

## Avropanın Şuşa qorxusu...

Bax səh. 5

### Qərb-Şərq arasında vacib platforma - TDT

Türk Dövlətləti Təşkilatının (TDT) dövlət başçılarının iyulun 6-da Şuşada böyük uğurla baş tutan qeyri-formal Zirvə görüşü tarixi hadisədir. Tədbirdə çıxış edən qonaqlar Şuşada belə bir önəmli görüşün yüksək səviyyədə təşkilinə görə Azərbaycana təşəkkürlərini bildirərək Türk dünyasının inteqrasiyasının daha da dərinləşdirilməsinə hesablanan fikirlər ifadə ediblər.

Türkdilli ölkələr Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin təmin olunmasına hər zaman...

Bax səh. 2

### Qarabağ Bəyannaməsinin ortaq maddəsi

Azərbaycanın dövlət başçısı regionda yeni nəqliyyat qovşaqlarının yaradılmasında TDT ölkələrinin yerləşdiyi əlverişli coğrafi imkanların üstünlüyündən danışaraq son illərdə intensivləşən Şərq-Qərb nəqliyyat dəhlizinin genişləndirilməsinin əhəmiyyətinə toxunub. TDT ölkələrinin yerləşdiyi Orta Dəhlizin ayrılmaz bir hissəsi olan Bakı-Tbilisi-Qars dəmir yolunun illik yükdaşıma qabiliyyətinin və Ələt Beynəlxalq Ticarət Limanının yükötürmə qabiliyyəti artırılması, Xəzər...

Bax səh. 4

### El sənətkarına el vəfası...

Azərbaycan aşıq şeirinin ən böyük nümayəndələrindən olan Aşıq Ələsgər 1821-ci ildə özünəxas təbii gözəllikləri ilə seçilən, sazın, sözün vətəni hesab olunan Göyçə mahalının Ağkilsə kəndində anadan olub. Atası Alməmməd kişi dülgərliklə məşğul olurdu, kəndin sayılıb-seçilən insanlarından idi.

Uşaq yaşlarından xüsusi təhsil ala bilməyən Ələsgər fitri istedada malik idi. O, el şənliklərində, məclislərdə, böyüklərin söhbətlərində danışılan nağılları, dastanları, rəvayətləri, hədisləri güclü yaddaşında saxlayar, sonra olduğu kimi başqalarına danışardı. El aşıqlarının məclisləri...

Bax səh. 7

### Orbanın sülh təşəbbüsləri nəticə verəcəkmi?

İki ildən artıqdır davam edən Rusiya-Ukrayna müharibəsi regionda böyük fəlakətə səbəb olub. Sonu görünməyən müharibə indiyə qədər həm Rusiyaya, həm də Ukraynaya xeyli zərər vurub. Belə ki, Ukraynada minlərlə mülki insan həyatını itirib, hərbçilər həlak olub, xeyli sayda infrastruktur dağıdılıb, milyonlarla insan qaçqın vəziyyətinə düşüb. Bu ölkənin ərazisinin 20 faizə yaxını hazırda Rusiya ordusunun nəzarətindədir. Müharibə Rusiya üçün də ağır nəticələrə səbəb olub...

Bax səh. 6

### Makron bu dəfə də uduzdu...

Fransada iyulun 7-də keçirilən növbədənkənar parlament seçkilərinin ikinci turunda Jan-Luk Melanşonun başçılıq etdiyi solçu “Yeni xalq cəbhəsi” koalisiyası qalib gələrək Milli Assambleyada 182 mandat qazanıb. Bu barədə Fransa Daxili İşlər Nazirliyi məlumat yayıb. Seçkilərin nəticələrinə görə, ikinci yeri tutan Emmanuel Makronun “Birlikdə” koalisiyası parlamentinin aşağı palatasında 168 yerə, üçüncü yeri tutan Marin Le Penin “Milli birlik” partiyası isə 143 yerə sahib olub. İkinci turda 200 nəfərin namizədliyini geri götürməsi ifrat sağçıların məğlubiyyətinin əsas səbəbidir...

Bax səh. 7

# Türk dünyasının Şuşa Zirvəsi!

## İlham Əliyev: Keçən il sentyabrın 20-də Azərbaycan öz ərazi bütövlüyünü və suverenliyini tam bərpa edəndən sonra Şuşada keçirilən bu Zirvə görüşü rəmzi məna daşıyır

Türkdilli ölkələrlə əlaqələrin genişləndirilməsi, Türk dünyasının və Türk Dövlətləri Təşkilatının (TDT) gücləndirilməsi Azərbaycanın xarici siyasətinin prioritet istiqamətlərindən birini təşkil edir. Respublikamız davamlı olaraq Türk dünyasının sıx birləşməsi, onun siyasi, iqtisadi və hərbi qüdrətinin artması, qlobal arenada güc mərkəzinə çevrilməsi naminə səylər göstərir. Xatırladaq ki, Türk Dövlətləri Təşkilatının əsası məhz Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü ilə 2009-cu ildə Naxçıvanda qoyulub. Sonradan dövlətimizin başçısı TDT-nin funksionallığının daha da genişlənməsi ilə bağlı bir sıra təşəbbüslər irəli sürüb və bu təşəbbüslər dost dövlətlər tərəfindən məmnuniyyətlə qəbul olunub. İyulun 6-da isə Azərbaycan xalqı üçün müstəsna önəm daşıyan Şuşa şəhərində Türk Dövlətləri Təşkilatının dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşü keçirilib. Prezident İlham Əliyev Zirvə görüşündəki çıxışında vurğulayıb ki, keçən il sentyabrın 20-də Azərbaycan öz ərazi bütövlüyünü və suverenliyini tam bərpa edəndən sonra Şuşada keçirilən bu Zirvə görüşü rəmzi məna daşıyır.

### Bütün Türk dünyası üçün qəhrəmanlıq simvoluna çevrilən Şuşa

Havadarlarının dəstəyi və xəyanət nəticəsində Şuşanı ələ keçirən ermənilər təxminən üç onilliyi əhatə edən işğal dövründə burada ağlasığmaz vandalizm əməlləri törətməklə yanaşı, özlərinə xas olan tərzdə Şuşanın simasını dəyişməyə, onu da erməniləşdirməyə cəhdlər göstəriblər. Ancaq alınmayıb. Şəhərin ayrı-ayrı yerlərində çoxlu sayda xaçkarlar, əski parçaları və digər erməni simvolları asılsa da, bunlar yamaq təsiri bağışlayıb və Şuşa hətta dağılmış vəziyyətdə də özünün azərbaycanlı ruhunu qoruyub saxlayıb. Çünki ermənilərin bu şəhərin yaradılması ilə hər hansı bir bağlılıqları olmayıb. Əgər olsaydı, onlar işğal dövründə şəhəri viran qoymazdılar. Qeyd edək ki, Şuşanın təməli 1752-ci ildə Pənahəli xan tərəfindən qoyulub. Şəhər üçün yer xüsusi həssaslıqla seçilib və bütün dövrlərdə xalqımız onun inkişafına qayğı və məhəbbətlə yanaşıb.

Şuşanın mənfur düşmən tərəfindən işğalı 1992-ci il mayın 8-də baş tutub. Ancaq bizim ruhumuz, qəlbimiz həmişə Şuşa ilə döyünüb. Prezident İlham Əliyevin bildirdiyi kimi, Şuşanın 1992-ci ilin mayında Ermənistan tərəfindən işğal edilməsi Azərbaycan xalqının böyük faciəsi idi. Azərbaycan xalqı bu işğalla heç vaxt barışmamış, həmişə Şuşaya və işğal altında olan digər ərazilərimizə qayıtmaq arzusu ilə yaşamış və buna nail olmuşdur. "2020-ci ildə 44 günlük Vətən müharibəsi zamanı Azərbaycan Ordusu döyüş meydanında 300-dən çox şəhər və kəndi Ermənistanın təxminən 30 il davam edən işğalından azad etmişdir. 2020-ci il noyabrın 8-də Şuşanın işğaldan azad edilməsindən sonra Ermənistan kapitulyasiya aktına imza atmağa məcbur olmuş və beləliklə, İkinci Qarabağ müharibəsi başa çatmışdır. Hər il noyabrın 8-i Azərbaycanda Zəfər Günü kimi qeyd edilir", - deyə dövlətimizin başçısı bildirib.

Şuşa Zəfəri bütün Türk dünyasının qürur mənbəyidir. Tarixin müxtəlif dönəmlərində ayrı-ayrı Türk etnoslarının göstərdikləri qəhrəmanlıqlar hər kəsə yaxşı məlumdur. Azərbaycan Ordusunun Şuşa Zəfəri həmin qəhrəmanlıq tarixinin yeni bir şanlı səhifəsidir. Əlamətdar haldır ki, Şuşa müasir dövrdə Türk dünyasının kollektiv təhlükəsizliyinin əsası qoyulan şəhər kimi tarixə düşüb. Xatırladaq ki, 2021-ci il 15 iyun tarixində Azərbaycan və Türkiyə arasında Şuşa Bəyannaməsi imzalanıb. Bununla da iki qardaş ölkə müttəfiqlik münasibətlərini ən yüksək səviyyədə rəsmiləşdiriblər. Şuşa Bəyannaməsi ölkələrimizin təhlükəsizliyinə və sülhə möhkəm hüquqi əsaslar yaradır. Bu təcrübə genişləndirilməli və böyük Türk coğrafiyası siyasi, iqtisadi inteqrasiyadan hərbi müttəfiqliyə doğru irəliləməlidir.

TDT-nin Şuşada keçirilən qeyri-formal Zirvə görüşündə daha bir mühüm sənəd - Qarabağ Bəyannaməsi imzalanıb. Sənəddə TDT-nin qeyri-rəsmi Zirvə görüşünün 2023-cü ildə "Türk dünyasının mədəniyyət paytaxtı" olmuş Şuşa şəhərində keçirilməsinin tarixi əhəmiyyət daşıdığı qeyd edilib. Tərəflər strateji tərəfdaşlığın daha da möhkəmləndirilməsi və dərinləşdirilməsi, TDT-nin kollektiv strategiyasının formalaşdırılması üçün siyasi, iqtisadi, nəqliyyat, müdafiə sənayesi, humanitar, təhsil və mədəniyyət sahələrində Türk dövlətlərinin tam potensialından və imkanlarından istifadə edilməsinin vacibliyini bir daha vurğulayıblar.

Bütövlükdə, Şuşa yalnız Azərbaycan və azərbaycanlılar üçün əziz olan bir şəhər deyil. Tarix boyunca Şuşada yaradılan zəngin mədəniyyət bütün Türk dünyasının sərvətidir. Burada bir sıra faktları sadalamaq yerinə düşər. Prezident İlham Əliyevin sərəncamı ilə 2022-ci il respublikamızda "Şuşa İli" elan olunub və xalqımız onun üçün çox əziz olan doğma şəhərin 270-ci ildönümünü təntənəli şəkildə qeyd edib. Eyni zamanda, Şuşa TÜRKSOY tərəfindən 2023-cü il üçün "Türk dünyasının mədəniyyət paytaxtı", ICESCO tərəfindən isə 2024-cü il üçün "İslam dünyasının mədəniyyət paytaxtı" elan olunub.




### "Böyük Qayıdış" proqramına qardaşlıq dəstəyi

Müharibə başa çatdıqdan sonra işğaldan azad olunan bütün ərazilərin quruculuqla, genişmiqyaslı bərpa işləri ilə səciyyələnən yeni dövrü başlayıb. Dövlətimizin başçısı çıxışında məlumat verərək bildirib ki, bu gün Qarabağ və Şərqi Zəngəzurda "Böyük Qayıdış" proqramı icra olunur. Ermənistan işğal dövründə bu ərazilərdə bütün şəhər və kəndləri yerlə-yeksan etmişdir. İndi isə bu torpaqlara həyat qayıdır.

Bu gün həmçinin Şuşa şəhəri də quruculuq meydanını xatırladır. Şuşaya onu sevənlər, onun əsl sahibləri qayıdıblar. İndi onlar erməni vandallarının ögey münasibət bəslədikləri, vəhşicəsinə dağıtdıqları şəhəri qarış-qarış yenidən qururlar. Deyə bilərik ki, tarixi Şuşa bərpa olunur, həm də gözəl şəhərimizin siması müasir elementlərlə, yeni memarlıq həlləri ilə daha da zənginləşdirilir. Prezident İlham Əliyevin tapşırıqlarına uyğun olaraq bütün layihələr son dərəcə məsuliyyətlə yerinə yetirilir. Ötən dövrdə şəhərdə onlarca layihə tamamlanıb. Burada infrastruktur quruculuğu, Heydər Əliyev Fondunun dəstəyi ilə tarixi abidələrin bərpası və yaşayış evlərinin tikintisi paralel şəkildə həyata keçirilir. "Böyük Qayıdış" proqramının icrası çərçivəsində bu günə qədər 8 minə yaxın keçmiş məcburi köçkün Laçın, Füzuli, Şuşa, Xocalı şəhərlərinə və dörd kəndə qayıdıb. Bu ilin sonuna qədər 20 min insanın azad edilmiş torpaqlara qayıdışı təmin olunacaq.

Əlamətdar haldır ki, Türkdilli dövlətlər də Azərbaycanın işğaldan azad edilmiş ərazilərində həyata keçirilən "Böyük Qayıdış" proqramına qardaşlıq dəstəyi göstərirlər. Bundan məmnunluğunu bildirən dövlətimizin başçısı vurğulayıb: "Türk dövlətlərinin rəhbərlərinin azad edilmiş torpaqlara səfərləri qardaşlıq həmrəyliyinin təzahürüdür. Türkiyə Prezidenti Şuşa, Füzuli, Zəngilan və Cəbrayıla, Özbəkistan və Qazaxıstan prezidentləri Şuşa və Füzuliyə, Qırğızıstan Prezidenti Füzuli və Ağdama səfərlər etmişlər. Fürsətdən istifadə edərək, qardaşlığımızın rəmzi olan məktəb və yaradıcılıq mərkəzinə və eləcə də tikiləcək məktəblərə görə qardaş ölkələrin dövlət və hökumət başçılarına bir daha təşəkkürümü bildirirəm".

*Mübariz ABDULLAYEV*

# Qərb-Şərq arasında vacib platforma - TDT

Türk Dövlətləti Təşkilatının (TDT) dövlət başçılarının iyulun 6-da Şuşada böyük uğurla baş tutan qeyri-formal Zirvə görüşü tarixi hadisədir. Tədbirdə çıxış edən qonaqlar Şuşada belə bir önəmli görüşün yüksək səviyyədə təşkilinə görə Azərbaycana təşəkkürlərini bildirərək Türk dünyasının inteqrasiyasının daha da dərinləşdirilməsinə hesablanan fikirlər ifadə ediblər.

### Qazaxıstan öz platformasını təqdim etməyə hər zaman hazırdır

Türkdilli ölkələr Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin təmin olunmasına hər zaman mənəvi-siyasi dəstək veriblər. O cümlədən postmüharibə mərhələsində Azərbaycanla Ermənistan arasında başlanan tənzimləmə prosesi bütün Türk dünyasında diqqətlə izlənilir. "Mən Azərbaycan ilə Ermənistan arasında sülhün bərqərar olması istiqamətində müsbət tendensiyanı vurğulamaq istərdim. Biz barışığa yönəlmiş addımları alqışlamalıyıq. Biz Bakı və İrəvan arasında sülh danışıqları üçün platformamızı təklif etməyə hər zaman hazırıq". Bu fikirləri Zirvə görüşündəki çıxışında Türk Dövlətləri Təşkilatının hazırkı sədri, Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev ifadə edib.

Qazaxıstan Prezidenti çıxışında Trans-Xəzər beynəlxalq nəqliyyat marşrutunun əhəmiyyətinə də diqqət çəkib. O bildirib ki, bu marşrutun bütün potensialı istifadə olunmalıdır.

### Azərbaycan COP29-a uğurlu sədrlik həyata keçirəcək

Ötən ilin dekabrında Dubayda keçirilən iqlim konfransında COP29-a ev sahibliyi hüququnun respublikamıza verilməsi ilə bağlı qərar verilib. Hazırda Azərbaycan öz ənənəsinə uyğun olaraq bu tədbirə də məsuliyyətli hazırlıq həyata keçirir. Müəyyənləşdirilən gündəlik kifayət qədər geniş əhatə dairəsinə malikdir. Şuşada baş tutan Zirvə görüşündəki çıxışında Azərbaycanın noyabrda COP29-a uğurla sədrlik edəcəyinə əminliyini ifadə edən Qırğız Respublikasının Prezidenti Sadır Japarov bildirib: "Sevindirici haldır ki, bu ilin noyabr ayında qardaş Azərbaycan ən vacib qlobal forumlardan birinə - BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına - COP29-a ev sahibliyi edəcək. Əminəm ki, Azərbaycanın COP29-a sədrliyi qarşıdan gələn konfransın gündəliyində duran məsələlərin, o cümlədən iqlim maliyyələşməsini əhəmiyyətli dərəcədə irəliyə apara biləcək".

Qırğızıstan Prezidenti ölkəsinin Azərbaycanla və təşkilata üzv olan digər ölkələrlə bərpaolunan enerji sahəsində əməkdaşlıqda maraqlı olduğunu da diqqətə çatdırıb. "Azərbaycanın bərpaolunan enerji mənbələrini, o cümlədən COP29-a sədrliyi çərçivəsində fəal inkişaf etdirdiyini və təşviq etdiyini nəzərə alaraq, biz Azərbaycan tərəfinə və ümumilikdə üzv dövlətlərə bərpaolunan enerji mənbələri ilə bağlı birgə layihələri həyata keçirmək üçün çağırış edirik", - deyə Sadır Japarov vurğulayıb.

### Azərbaycana qarşı əsassız ittihamlar qəbul edilə bilməz

Azərbaycanın formalaşdırdığı yeni reallıqlar region dövlətləri və daha geniş coğrafiyalar üçün böyük əhəmiyyətə malikdir. Qardaş Türkiyənin vitse-prezidenti Cevdet Yılmazın çıxışında bildirildiyi kimi, Cənubi Qafqazda davamlı sülhün və sabitliyin bərqərar olması təkcə bölgə ölkələri üçün deyil, regional nəqliyyat xətlərinin açılacağı səbəbindən qlobal təhlükəsizlik və kommunikasiyalar baxımından da böyük önəm daşıyır. Bu xətlərin açılması regional əməkdaşlığı gücləndirərək Orta Asiya, Qara dəniz və Xəzər dənizi hövzələri də daxil olmaqla, bütün Türk dünyası üçün böyük imkanlar yaradacaq, yeni fürsətlər doğuracaq.

Bununla belə, ayrı-ayrı ölkələr və təsisatlar yenə də ikili standartlardan çıxış edərək ölkəmizin ünvanına əsassız ittihamlar irəli sürməkdən çəkinmirlər. Qardaş Türkiyənin vitse-prezidenti belə yanaşmanın qəbuledilməz olduğunu bildirirb. "Birinci Qarabağ müharibəsi nəticəsində öz yurdlarından didərgin salınan bir milyon azərbaycanlı qardaşımız üçün səsini çıxarmayan dövlətlərin bu gün haqsız və əsassız ittihamlarla qardaş Azərbaycanı hədəfə alması əsla qəbul edilə bilməz. Türk dünyası olaraq bu əsassız ittihamlara qarşı Azərbaycana güclü dəstək verməyimiz qardaşlığımızın olduğu kimi, ədalətin də zərurətidir", - deyə Cevdet Yılmaz vurğulayıb.



### Sülh naminə qarşılıqlı fəaliyyət

Zirvə görüşündəki çıxışında Macarıstanın Baş naziri Viktor Orban hazırda regionda minlərlə insana sülh şəraitində yaşamaq imkanı verdiyinə görə Prezident İlham Əliyevə dərin ehtiramını ifadə edib. O, eyni zamanda, bu fürsətin ən qısa zamanda Avropada da əldə olunmasını arzu etdiyini bildirib.

Hazırda dünyanın mənzərəsi arzuolunmaz istiqamətdə dəyişir. O cümlədən müharibələr nəticəsində dünyanın müxtəlif bloklara bölünməsi riskləri getdikcə artır. Bundan narahatlığını ifadə edən V.Orban deyib: "Kədərli tarixi təcrübələrimizə əsaslanaraq, sülhə hörmət naminə qlobal əməkdaşlığı bərpa etmək üçün ünsiyyət və qarşılıqlı fəaliyyət dövrünə üstünlük verərdik. Bu mübarizədə sizə güvənirik. Biz Türk Dövlətləri Təşkilatına Qərb ilə Şərq arasında əməkdaşlıq üçün çox vacib bir təşkilat kimi baxırıq".

### Ən böyük gücümüz Türk dünyasının birlik, bərabərlik və həmrəyliyidir

Hazırda TDT-nin sıralarının genişlənməsi qurumun perspektivlərindən xəbər verir. O cümlədən Azərbaycan Prezidentinin təşəbbüsü əsasında Şimali Kipr Türk Cümhuriyyətinin Prezidenti də artıq TDT-nin tədbirlərinə qatılır. Buna görə dövlətimizin başçısına təşəkkürünü çatdıran Şimali Kipr Türk Cümhuriyyətinin Prezidenti Ersin Tatar bildirib ki, ən böyük gücümüz Türk dünyasının birlik, bərabərlik və həmrəyliyidir. "Bir araya gələndə, həmrəy olanda nələr edə biləcəyimizi göstərmişik. Bu baxımdan, Şimali Kipr Türk Cümhuriyyətinin Türk dünyasının ayrılmaz hissəsi olaraq bu gün qədim Şuşada təmsil olunması son dərəcə önəmli və tarixi hadisədir", - deyə Ersin Tatar əlavə edib.

### Zəngəzur Dəhlizi Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizləri arasında mühüm bağlantı olacaq

Türk Dövlətləri Təşkilatının Baş katibi Kubanıçbek Ömüralıyev çıxışında təşkilata üzv ölkələr arasında əməkdaşlığın inkişafında beynəlxalq nəqliyyat dəhlizlərinin əhəmiyyətinə toxunub. Baş katib qeyd edib ki, Orta Dəhliz qlobal ticarətdə həyati əhəmiyyət kəsb edən arteriya rolunu oynayır. "İki ölkə arasında ən təhlükəsiz və ən qısa marşrut vəd edən bu dəhliz, sadəcə, yüklərin daşınması üçün yol deyil. Bu, iqtisadi artım, innovasiyalar və əməkdaşlıq üçün xilas kəməridir. Zəngəzur dəhlizi Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizləri arasında mühüm bağlantı olacaq", - deyə Kubanıçbek Ömüralıyev əlavə edib.

### Qardaş ölkələrin birgə layihələri

Yaxın coğrafiyalarda yerləşmələri Türkdilli ölkələrin iqtisadi sahədə əməkdaşlıq imkanlarını artırır. Türk Dövlətləri Təşkilatının Ağsaqqallar Şurasının sədri Binəli Yıldırım çıxışında indiyədək icra olunan birgə layihələrin əhəmiyyətindən bəhs edərək vurğulayıb: "Bu məsələdə bir daha möhtərəm cənab Prezidentə təşəkkür edirəm, 2004-cü ildə birlikdə fikir olaraq planlaşdırdığımız Bakı-Tbilisi-Qars dəmir yolunun tikintisinin reallaşdırılmasında hörmətli Prezidentimiz böyük bir liderlik etdi. Gürcüstanın layihə ilə bağlı tərəddüdlərinin aradan qaldırılmasında hörmətli Prezidentimizin mühüm töhfələri oldu. Bakı-Tbilisi-Qarsın reallaşması bu gün Orta Dəhlizin çatışmayan halqasının tamamlanması deməkdir və bu dəhlizdən artıq daha səmərəli istifadə olunmasına imkan yaradıb. 2030-cu ilə qədər bu marşrutla yükdaşımalarının həcmini 11 milyon tona çatdırmağımız mümkündür. Bunun üçün bəzi addımlar atılmalıdır".

*Mübariz FEYİZLİ*

# TDT-nin gələcək strateji yol xəritəsi...

## Qarabağ Bəyannaməsi

İyulun 6-da Şuşada baş tutmuş Türk Dövlətləri Təşkilatının qeyri-rəsmi Zirvə görüşü mühüm nəticələri ilə seçildi. Xüsusilə, imzalanan "Qarabağ Bəyannaməsi" Türk Dövlətləri Təşkilatının (TDT) gələcəyi üçün mühüm proqram və strateji yo xəritəsi sayılır. Azərbaycan Prezidenti İlham Əliyevin, Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevin, Qırğız Respublikasının Prezidenti Sadır Japarovun, Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin və Türkiyənin Vitse-prezidenti Cevdet Yılmazın imzaladığı sənəd Türk dünyasını regionda və dünyada sülh, təhlükəsizlik, sabitlik, inkişaf və tərəqqi ideyalarına sadiq olan türk xalqlarının ortaq etnik köklər, tarix, dil, mədəniyyət, ənənələr və dəyərlərinə söykənən ailə olduğunu bir daha ortaya qoydu. Bəyannamədə Türk xalqlarının qitə miqyasında töhfələri, qlobal siyasət, iqtisadiyyat və sivilizasiyaların inkişafında tarix boyu oynadığı rol ən yüksək şəkildə dəyərləndirilir.



## Strateji tərəfdaşlığın daha da möhkəmləndirilməsi və dərinləşdirilməsi üçün

Sənəddə həmçinin TDT-nin qeyri-rəsmi Zirvə görüşünün 2023-cü ildə "Türk dünyasının mədəniyyət paytaxtı" olmuş Şuşa şəhərində keçirilməsinin tarixi dəyəri vurğulanır, strateji tərəfdaşlığın daha da möhkəmləndirilməsi və dərinləşdirilməsi, TDT-nin kollektiv strategiyasının formalaşdırılması üçün siyasi, iqtisadi, nəqliyyat, müdafiə sənayesi, humanitar, təhsil və mədəniyyət sahələrində türk dövlətlərinin tam potensialından və imkanlarından istifadə edilməsinin vacibliyi qeyd edilir. Bundan başqa, Türk dövlətlərinin qlobal miqyasda potensialı nəzərə alınmaqla daha iddialı məqsədlərin qarşıya qoyulmasının, birgə səylərin artırılması və strateji əhəmiyyətli regional layihələrin həyata keçirilməsi yolu ilə dayanıqlı gələcəyin qurulması baxımından TDT-nin vəzifə və məqsədlərinin səmərəli həyata keçirilməsi üçün müvafiq mexanizm və qaydaların tətbiqinin zəruriliyi bəyan edilir.

Bəli, günümüzün reallığında dünyanı ağuşuna almış kataklizmlər istər bölgəsəl, istərsə də qlobal nəticələrə hesablanan qarşıdurmalardan "bəhrələnir". Bu mənada ölkələrin bütövlükdə qlobal proseslərə ümumi baxış bucağının forrmalaşdırılması ən vacib məqamlardandır. Eyni zamanda, yeni dövrdə effektivliyi və çevikliyi artırmaq, ümumi immun sistemini formalaşdırmaq və inkişaf etdirmək də əsas müzakirə predmetlərindən sayılır - bu mənada, fərdi yanaşmalarla yanaşı, kollektiv səylərin gücləndirilməsi TDT üçün mühüm üfüqlər vəd edir. TDT-nin qarşıdakı dövr ərzində strukturlaşma mexnizmində çevikliyin artırılması, fərqli sahələr üzrə strukturlaşmanın daha da təkmilləşdirilməsi və inkişaf etdirilməsi, yeniliklərə əl atılması istisna deyil - belə olacağı təqdirdə, yeni dövr üçün TDT özünün hərtərəfli reaksiya qabiliyyətini daha da gücləndirmək imkanlarına malik olacaq.

## Müdafiə sənayesi sahəsində birgə fəaliyyət...

Bəyannamədə üzv dövlətlərin milli qanunvericiliyinə uyğun olaraq müdafiə sənayesi sahəsində birgə fəaliyyətin davam etdirilməsi niyyətləri bir daha vurğulanır və bu xüsusda lazımi tədbirlərin görülməsi üçün üzv dövlətlərin aidiyyəti qurumlarına tapşırıq verilməsi əksini tapır.

Qeyd edilən müddəa olduqca vacib məqamlardan xəbər verir - düzdür, hazırkı dövrdə TDT üzvü olan ölkələrə qarşı hər hansı real təhlükələr hiss edilməsə belə, əməkdaşlığın hərbi müdafiə sahəsi üzrə inkişaf etdirilməsi inteqrasiyanı daha da sürətləndirəcək. Hazırda bölgə dövlətlərinin əksəriyyətinin fərqli regional hərbi bloklarda təmsil olunması da buna mane olmaz - bu mənada, TDT formatında həm NATO, həm də KTMT üzvü olan dövlətlər, Azərbaycanın timsalında Qoşulmama Hərəkatına uğurla liderlik etmiş ölkə təmsil olunur. Təbii ki, bu ümumi prosesə mane olacaq deyil, əksinə daha da təkan verəcək stimul sayılılr. Xatırlayırıqsa, təşkilatın mülki müdafiə sahəsində əməkdaşlıq perspektivləri ilə bağlı uzun müddət idi ki, aktiv müzakirələr aparılırdı və bu, qarşıdakı dövr üçün yeni inteqrasiya sahələrini də aktuallaşdırmaq imkanındadır. Təbii ki, ortada mühüm bir nümunə mövcuddur - Azərbaycan ilə Türkiyə arasında imzalanan "Şuşa Bəyannaməsi" yeni dövr üçün TDT-nin hərbi əməkdaşlıq, müdafiə sahəsində tərəfdaşlıq doktrinası rolunda çıxış edə bilər.

## Qəzzaya dair münasibət...

Sənəddə Türk Dövlətləri Təşkilatının fərqli coğrafiyalarda baş verən məsələlərə qarşı münasibəti də əksini tapıb. Belə ki, sənəddə Qəzzada baş vermiş humanitar fəlakət vəziyyətinə görə dərin narahatlıq ifadə edilir və mülki əhalinin seçimsiz hədəfə alınması qınanılır. Dərhal və daimi atəşkəsin təmin edilməsinə, Qəzzaya maneəsiz humanitar yardımın göstərilməsinə, eləcə də beynəlxalq hüquqa, o cümlədən BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinə tam riayət edilməsinə, daha sonra İsrail-Fələstin münaqişəsinin iki dövlətli həll əsasında ədalətli və uzunmüddətli həllinə çağırış səsləndirilir. Bildirilir ki, paytaxtı Şərqi Qüds olmaqla 1967-ci il sərhədlərinə əsaslanan, müstəqil, suveren və vahid Fələstin Dövlətinin beynəlxalq səviyyədə tanınması dəstəklənir, Fələstin Dövlətinin BMT-yə üzvlüyə yararlı olduğunu və buna görə də onun BMT-yə üzvlüyə qəbul edilməli olduğunu müəyyən edən BMT Baş Assambleyasının 2024-cü il 10 may tarixli qətnaməsinin qəbul olunması məmnuniyyətlə alqışlanır. Habelə bunu etməyən bütün ölkələr Fələstin Dövlətini tanımağa çağırılırlar.

Qeyd edək ki, Qarabağ Bəyannaməsində əksini tapan bu məsələlər birmənalı şəkildə beynəlxalq hüququn kodekslərini özündə əks etdirməkdədir. Azərbaycan başda olmaqla bütün TDT üzvləri dünyada baş verən kataklizmlər və qarşıdurmalara münasibətdə hər zaman vahid mövqe nümayiş etdirib - məsələlərin sülh və beynəlxalq hüquq müstəvisində həll edilməsi bizim üçün əsas şərtə çevrilib. Bu mənada, Qəzzada baş verənlərə münasibətdə də TDT-nin tutduğu mövqe hər zaman olduğu kimi haqqa, ədalətə və hüquqa əsaslanır. Mühüm beynəlxalq strukturlarda təmsil olunan TDT üzvləri beynəlxalq tribunalarda ədalətin və hüququn bərpası çağırışı səsləndirirlər. Türk birliyi Qəzza məsələsində də analoji mövqedən çıxış edir - biz, silahlardan istifadənin dayandırılmasının, məsələlərin sülh və danışıqlar yolu ilə həll edilməsinin, ən əsası dinc, günahsız insanların əziyyət çəkməməsini istəyirik.

## Müşahidəçi üzvlərin töhfələri...

Bəyannamədə TDT üzvü ölkələr və irəli sürülən təşəbbüslərlə bağlı müddəalar da öz əksini tapıb. Macarıstanın, Türkmənistanın və Şimali Kipr Türk Cümhuriyyətinin müşahidəçi qismində TDT-yə dəyərli töhfələri alqışlanır, Türk Dövlətlərinin Parlament Assambleyası (TÜRKPA), Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı (TÜRKSOY), Türk Akademiyası, Türk Mədəniyyəti və İrsi Fondu (TMİF) və Türk İnvestisiya Fondu (TİF) kimi türk əməkdaşlıq təşkilatları arasında davamlı əməkdaşlıq və artan sinerji təqdir edilir. Eyni zamanda, Qırğız Respublikası 2024-cü il oktyabrın 24-də Bişkekdə TDT-nin 11-ci Zirvə görüşünə ev sahibliyi etməyə hazır olduğunu bir daha təsdiq edib.

Xatırladaq ki, Türk Dövlətləri Təşkilatı və ya keçmiş adı ilə Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası (Türk Şurası) 3 oktyabr 2009-cu ildə Naxçıvan şəhərində imzalanan Naxçıvan müqaviləsi ilə Azərbaycan, Türkiyə, Qazaxıstan və Qırğızıstan arasında qurulmuş olan beynəlxalq təşkilatdır. Özbəkistan 30 aprel 2018-ci ildə ovaxtkı TDƏŞ-ə qatılma niyyətinin olduğunu açıqlamış və 14 sentyabr 2019-cu ildə də Türk Şurasına üzv olmuşdu. 2021-ci ili noyabrın 12-də Türkiyənin İstanbul şəhərində baş tutan Sammitdə Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının adının Türk Dövlətləri Təşkilatı olaraq dəyişdirilməsinə qərar verilib. Macarıstan 2018-ci ildə, Şimali Kipr Türk Cümhuriyyəti 2022-ci ildə, Türkmənistan isə 2021-ci ildə qurumun fəaliyyətinə müşahidəçi qismində töhfə verir. Zirvə toplantılarına gəldikdə isə, 4 dəfə Azərbaycanda, 4 dəfə Türkiyədə, 3 dəfə Qazaxıstanda, 2 dəfə Özbəkistanda, 1 dəfə Qırğızıstanda baş tutub. Bu ilin oktyabrında baş tutacaq növbəti, 11-ci Zirvə Toplantısı da Qırğız Respublikasının ev sahibliyi ilə keçiriləcək.

## Yeni tapşırıqlar ...

Qarabağ Bəyannaməsində o da bildirilir ki, hökumət Başçıları/Vitse-Prezidentlər Şurasına dair Qırğız Respublikasının təklifi nəzərə alınır. Türk dünyasının nizamnaməsi ilə bağlı Özbəkistan Respublikasının təşəbbüsü dəstəklənir və Katibliyə Bişkekdə keçiriləcək növbəti Zirvə görüşündə qəbul edilməsi üçün sənəd layihəsinin yekunlaşdırılması tapşırığı verilir. Eyni zamanda, TDT çərçivəsində iqtisadi əlaqələrin möhkəmləndirilməsinin əhəmiyyətli mərhələsi kimi Macarıstanın Türk İnvestisiya Fondunun yaradılması haqqında Sazişə qoşulması da alqışlanır.

## TDT üzvü ölkələrin başçıları İlham Əliyevə təşəkkür edir...

Bundan başqa, Sənəddə o da vurğulanır ki, TDT-nin dövlət başçıları Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə Türk dünyasının birliyi, həmrəyliyi, təhlükəsizliyi və rifahına verdiyi böyük və davamlı töhfəsinə, TDT-nin vahid ruhunun gücləndirilməsində qətiyyətli liderliyinə və Şuşada qeyri-rəsmi Zirvə görüşündə uğurla yekunlaşan müzakirələrə sədrlik etdiyinə görə dərin təşəkkür edir, Azərbaycan hökumətinin və xalqının səmimi qonaqpərvərliyini yüksək qiymətləndirirlər. TDT-nin Baş katibinə Bəyannamədə nəzərdə tutulan qarşılıqlı fəaliyyəti və birgə səyləri əlaqələndirmək tapşırığı verilir.

***Pərviz SADAYOĞLU***

# Azərbaycanın öncül təşəbbüsü...

## Türk dövlətləri yeni iqtisadi güc arxitekturası formalaşdırır

Şuşada keçirilən Türk Dövlətləri Təşkilatının (TDT) dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşündə çıxış edən Prezident İlham Əliyev Türk ölkələri ilə əlaqələrin genişləndirilməsində son illərdə geniş vüsət alan iqtisadi layihə və proqramların müstəsna əhəmiyyətinə toxunaraq bu istiqamətdə səylərin daha da artırılmasının vacibliyinə diqqət çəkdi. Dövlətimizin başçısı bildirdi ki, böyük coğrafi məkanı əhatə edən türk dövlətləri arasında son illərdə artan iqtisadi dinamika mövcud zəngin təbii resursların daha çox səfərbər edilməsini və müasir infrastrukturların köməyilə vahid bir iqtisadi gücün formalaşmasını aktuallaşdırıb. Mərkəzi Asiya, Qafqaz, Aralıq və Qara dənizi birləşdirən nəqliyyat dəhlizləri Türk dünyasının iqtisadi-maliyyə inkişafı üçün güclü zəminlər yaradır.

### Qarabağ Bəyannaməsi qardaş ölkələrin böyük bir iqtisadi coğrafiyada regional və qlobal potensialını möhkəmləndirəcək

TDT qarşıda duran iqtisadi hədəfləri vahid iqtisadi siyasətlə əlaqələndirmək, müasir geoiqtisadi tələblərdən meydana çıxan maliyyə prioritetlərinə təminat yaratmaq üçün vahid büdcə təsis edib. Ancaq müəyyən edilmiş yeni Yol xəritəsinin sinerjisi maliyyə xərclərinin artırılmasını zəruri edir və Azərbaycan bu məsələdə də öncül təşəbbüskarlığı ilə seçilməkdədir. İlham Əliyevin bəyan etdiyi kimi Türk Dövlətləri Təşkilatının cari büdcəsi və strukturu birlikdə nəzərdə tutulan hədəflərin reallaşdırılması üçün yetərli deyil, buna görə, Azərbaycan bu günlərdə Katibliyin hesabına 2 milyon dollar məbləğində vəsait köçürüb. Bu nümunəvi addımla TDT-nin gələcək büdcə-maliyyə portfelinin böyüməsi üçün digər üzvlərin də əlavə maliyyə təminatları yaradacağına əminlik yaradır.

Türk Dövlətləri Təşkilatının qeyri-rəsmi Zirvə görüşünün yekununda imzalanmış Qarabağ Bəyannaməsində də üzv ölkələrin maliyyə imkanlarının artırılması, birgə ortaq layihələrdə investisiya tərəfdaşlığında əlavə imkanların birləşdirilməsi, nəzərdə tutulan iqtisadi hədəflərə çatmaq üçün böyük maliyyə-investisiya fondlarının yaradılmasına xüsusi yer verilib. Ümumilikdə, Bəyannamənin bir neçə maddəsində əsas hədəf kimi ticarət həcmlərini artırmaq, limanlara, dəmir yollarına, avtomobil yollarına və logistika qovşaqlarına infrastruktur investisiyalarını cəlb etməklə dayanıqlı inkişaf, iqtisadi rifahı təmin etmək üçün üçün üzv dövlətlər arasında sıx əməkdaşlığa çağırış öz əksini tapıb. Bu məqsədlə tərəflər qarşıdan gələn illərdə ticarət həcminin həqiqi potensialına çatdırılması üçün konkret tədbirlərin görülməsi barədə razılığa gəlib. Bütün bu təşəbbüs və prioritetlərin əsas məqsəd və məramı isə TDT ölkələri arasında iqtisadi-ticari dinamikanı ən yüksək səviyyəyə çatdırmaq, investisiya portfellərini böyütmək və nəticədə türk dövlətlərinin tam potensialından və imkanlarından istifadə etməkdir.

Yuxarıda nəzərdə tutulan hədəflərə çatmaq üçün TDT bir müddət əvvəl tədbirlər planı hazırlayıb. Tədbirlər planı üzrə əsas prioritetlər yerüstü nəqliyyatla bağlı tətbiq olunan rüsumların, o cümlədən çəki, ölçü, xüsusi icazələrin alınması, təhlükəli yüklərin daşınması və s. barədə tələblər üzrə məlumatların elektron mübadiləsi, qeyri-tarif maneələri barədə araşdırmaların aparılması və təhlil sənədinin hazırlanması, səlahiyyətli iqtisadi operatorların qarşılıqlı tanınması barədə sazişlərin imzalanması və Türkiyədə tətbiq olunan Yeni



Kompüterləşdirilmiş Tranzit Sistemi təcrübəsinin bütün üzv ölkələrdə tətbiqindən ibarətdir. İqtisadi-ticarət əlaqələrin təşviqi və mal mübadiləsinin həcmlərinin artırılmasına xidmət edən bu vahid ideya yaxın gələcəkdə mal dövriyyəsinin həcmlərinin ən azı 3-4 dəfə artırılmasını ehtiva edir. Qeyd edək ki, hazırda ölkələr arasında iqtisadi layihələrdə təmsilçiliyin artması və son 4-5 ildə qarşılıqlı ticarət dövriyyəsinin yüksəlməsi bu tələbləri meydana çıxarıb. Təkcə, ötən il TDT ölkələri arasında əmtəə dövriyyəsi 30 faizə yaxın artıb və ümumilikdə TDT-nin qarşılıqlı əmttə dövriyyəsinin həcmi təxminən 45 milyard dollara bərabərdir. Sözsüz ki, bu göstərici tərəfləri qane etmir və tam potensialın hərəkətliliyinin artırılması sayəsində bu rəqəmi ən azı 100 milyard dollara çatdırmaq mümkündür.

Qeyd edək ki, Azərbaycanın TDT üzvləri ilə 2023-cü ildə ticarət dövriyyəsinin həcmi 9 milyard dollardan çox olub, 2022-ci illə müqayisədə təqribən 25 faiz artım qeydə alınıb. İxracın həcmi ötən il 5,65 milyard, idxalın həcmi isə 3,37 milyard dollar təşkil edib. Azərbaycanla TDT-yə üzv və müşahidəçi dövlətlərdən Qazaxıstan, Qırğızıstan, Özbəkistan və Türkmənistanla sərbəst ticarət sazişləri qüvvədədir ki, bu da həmin ölkələrlə idxal - gömrük rüsumlarının qarşılıqlı ləğvini nəzərdə tutur.

Ölkələr arasında iqtisadi münasibətlərin keyfiyyətcə yeni mərhələyə qədəm qoyması isə azad ticarət, güzəştli gömrük rejimlərinin yaradılması istiqamətində səylərin daha da gücləndirilməsini labüd edir. İndiyə qədər bu sahədə bir sıra sazişlər imzalanıb ki, bunu mühüm platforma yaradıcılığında ilk addımlar kimi səciyyələndirmək olar. Məsələn, Türkiyə ilə 2020-ci ildə imzalanmış Preferensial Ticarət Sazişi və 2023-cü ilin aprel ayında isə sazişin əhatə etdiyi məhsul siyahısının genişləndirilməsini nəzərdə tutur. Hər iki ölkə hazırda sazişə əlavə protokol sənədi daxil etməklə ikitərəfli ticarət həcminin artırılması, xarici ticarətlə bağlı xərclərin azaldılması və gömrük əməliyyatlarının sürətləndirilməsi məqsədilə ticarətin asanlaşdırılması üzrə ortaq işçi qrupun yaradılmasına qərar verib.

Türk Dövlətləri Təşkilatının Ticarətin Asanlaşdırılması üzrə Strategiya sənədi üzrə yaradılmış "Beynəlxalq ticarət" işçi qrupu da hazırda bu istiqamətdə təkliflər hazırlayır ki, bu da ticarətin asanlaşdırılmasını nəzərdə tutur. Bu, türkdilli ölkələr arasında mövcud bazar və investisiya imkanlarının öyrənilməsi və səfərbər olunması, xarici ticarət rejiminin asanlaşdırılması, bu coğrafiyanın beynəlxalq mühitə inteqrasiyasının təşkili, xarici investor və şirkətlərin ölkəyə cəlb olunmasını da hədəfləyir. Həmçinin, yeni formalaşdırılmış faydalı iqtisadi institutlardan biri olan Türk İnvestisiya Fondunun (TİF) imkanlarından səmərəli istifadə edərək davamlı maliyyə dayanıqlılığı yaratmaqla regional və qlobal layihələrdə investisiya axıcılığını təmin etmək mümkündür. Azərbaycan Prezidenti Şuşa görüşündə bu məsələyə xüsusi olaraq diqqət çəkərək İnvestisiya Fondunu iqtisadi əlaqələrin daha da dərinləşməsində uğurlu addım kimi qiymətləndirdi.

Hazırda Türk Dövlətləri Təşkilatına daxil olan müstəqil türk dövlətləri 155 milyon nəfər əhaliyə sahib olmaqla 4,5 milyon kvadrat kilometr coğrafi ərazini əhatə edir 1,5 trilyon dollara yaxın nominal ÜDM-ə sahib olmaqla dünyada 13-cü yerdə qərarlaşır. Alıcılıq qabiliyyəti pariteti üzrə isə türk dövlətlərinin real ÜDM-nin həcmi 4,7 trilyon dollara yaxındır.

Beləliklə, türk dövlətlərinin iqtisadi potensial və resurs imkanları hədsiz dərəcədə böyükdür və Qarabağ Bəyannaməsində əks olunmuş maddələrin yerinə yetirilməsi sayəsində böyük bir iqtisadi coğrafiyada regional və qlobal iqtisadi güc arxitekturasının möhkəmlənməsi mümkün olacaq.

***ELBRUS CƏFƏRLİ***

# TDT-nin gələcəyə yönələn "Yaşıl Baxış"ı



Türk Dövlətləri Təşkilatının (TDT) dövlət başçılarının Şuşada keçirilən qeyri-rəsmi Zirvə görüşündə Azərbaycanın qlobal iqlim çağırışlarına məsuliyyətlə yanaşaraq regionun müasir enerji landşaftının formalaşmasında təşəbbüskarlığı bir daha diqqətə çatdırıldı. Türk dövlətlərinin liderlərinin çıxışlarında Azərbaycanın noyabrda COP29-a uğurla sədrlik edəcəyinə, eyni zamanda ölkəmizin fəallığı sayəsində iqlim maliyyələşməsinin əhəmiyyətli dərəcədə irəliyə aparılacağına əminlik ifadə olundu. Ələlxüsus da, COP29 ili çərçivəsində yürüdülən uğurlu siyasətin tərkib hissəsi kimi Azərbaycanın bərpaolunan enerji mənbələrinə sərmayələrin cəlb edilməsi istiqamətində TDT-yə üzv dövlətlərlə birgə layihələrin həyata keçirilməsində çağırışları təqdir olundu.

Tədbirdə çıxış edən Prezident İlham Əliyev Azərbaycanın COP29-a sədrlik edən ölkə kimi bütün dövlətlər arasında həmrəyliyin gücləndirilməsi, konsensusa nail olunması üçün səylərini əsirgəməyəcəyini bəyan etdi, xüsusilə də TDT-nin enerji sahəsində strateji tərəfdaşlığını yüksək dəyərləndirərək bərpaolunan enerji və enerji səmərəliliyi sahəsində əməkdaşlığın yeni istiqamətlərinin anonsunu verdi. Şuşada TDT tərəfindən imzalanan Qarabağ Bəyannaməsi isə Türk Dövlətləri Təşkilatının gələcəyə yönələn "Yaşıl Baxış"ının konseptual hüquqi-iqtisadi əsasını müəyyən etməklə, regional yaşıl enerji hubu formalaşdırmaq qətiyyətini ifadə edir.

Bəyannamədə bərpaolunan enerji və enerji səmərəliliyi sahələrində əməkdaşlığın inkişafı da daxil olmaqla türk dövlətləri arasında enerji sahəsində strateji tərəfdaşlığın artırılması, Azərbaycan-Qazaxıstan-Özbəkistan enerji sistemlərinin qarşılıqlı əlaqələndirilməsi layihəsinin (Yaşıl dəhliz) inkişaf etdirilməsi, bərpaolunan geniş enerji potensialının üzv dövlətlərə və üçüncü ölkələrə ixracı və ticarəti üçün geniş enerji sistemlərinin yaradılması, enerji inteqrasiyası və qarşılıqlı əlaqələrin koordinasiyası üzrə çağırışlar öz əksini tapıb.

Bu, TDT-nin "yaşıl enerji" infrastrukturlarının qurulması və şaxələndirilməsindəki qətiyyətli siyasətinin təsdiqi olmaqla, dünyanın gündəliyində ön plana çıxan "yaşıl iqtisadiyyat" quruculuğunda fəal mövqeyini və dünya ölkələrini sülhə və əməkdaşlığa töhfə verən müasir enerji siyasətindəki həmrəylik, humanizm meyarlarını nümayiş etdirir. Bu, TDT tərəfindən beynəlxalq enerji icmasına və ekoloji tədqiqat mərkəzlərinə ətraf mühit mühafizəsi standartlarının qorunması, təmiz ekoloji mühitin yaradılması, "yaşıl enerji"yə keçidin sürətlənməsi prosesində aparıcılıq missiyasını üzərinə götürməsinə işarə edən çağırış kimi də qiymətləndirilə bilər.

Aydındır ki, türk dövlətlərinin qlobal miqyasda iqtisadi potensialı enerji resursları ilə yanaşı, həm də "yaşıl resurslar" üzrə də zəngindir, onların bərpaolunan enerji mənbələri üzrə proqnozları kifayət qədər ümidvericidir. Xəzərdə və azad edilmiş ərazilərdə böyük potensiallar var. Təkcə Xəzər dənizində külək sayəsində enerji istehsalı üçün təxminən 157 QVt güc vardır. Azərbaycan hökuməti "yaşıl" iqtisadiyyatın inkişafına tam sadiqdir və "yaşıl hidrogen"i gələcəyinin əsas hissəsi kimi görür. Ölkə artıq onu qlobal təmiz enerji bazarında mühüm oyunçuya çevirə biləcək iddialı "yaşıl hidrogen" istehsalı və ixracı layihələrini həyata keçirmək üçün addımlar atır. Uran hasilatında lider olan Qazaxıstanda da Günəş və külək stansiyaları üçün zəngin resurslar var ki, hazırda bu sahədə infrastrukturlar yaradılır. Özbəkistanın da geniş çöllərində Günəş enerjisi üçün resurslar xeyli böyükdür. Azərbaycan bərpa olunan enerji mənbələrinin ölkənin enerji balansındakı payını 2026-cı ilədək 24 faizə, 2028-ci ilə qədər isə 30 faizə çatdırmağı planlaşdırır. Qazaxıstan isə 2025-ci ildə ümumi elektrik enerjisi istehsalında bərpaolunan enerjinin payını 6 faizə, 2030-cu ilə qədər 10 faizə çatdırmağı planlaşdırır, 2050-ci ilə qədər isə bərpaolunan enerjinin ümumi enerji istehlakının azı yarısını təşkil etməlidir. Qazaxıstanın külək potensialı ildə 1 trilyon 820 milyard kilovat/saatdan çoxdur, Günəş enerjisi isə 1 trilyon kilovat/saatdır. Özbəkistan hökuməti isə 2030-cu ilə qədər ümumi elektrik enerjisi istehsalında bərpaolunan enerjinin payını 25 faizə, çatdırmağı hədəfləyir. Ölkədə külək enerjisinin potensialı 520 QVt, Günəş enerjisinin potensialı isə 2 trilyon 058 milyard kVt təşkil edir.

Beləliklə, 3 qardaş ölkənin bərpa olunan enerji potensialları bölgədə yeni "yaşıl" enerji dəhlizinin yaradılmasına zəmin yaradır və bu ölkələr Avropanı təmiz, etibarlı və sərfəli enerji ilə təmin edərək qitənin enerji keçidinin lokomotivinə çevrilə bilər. Azərbaycan və Mərkəzi Asiya ölkələri arasında əldə olunmuş razılaşmalar dünya birliyində bu türk dövlətlərinin mövqeyinin möhkəmlənməsi, Avropa ilə əlaqələrin güclənməsi üçün dərin təminat deməkdir.

Qarabağ Bəyannaməsində qeyd edildiyi kimi TDT ölkələri günəş, külək və su elektrik enerjisi kimi təmiz enerji mənbələrinin inteqrasiyasına diqqət yetirməklə dayanıqlı inkişafın təşviq edilməsi və rəqəmsal infrastrukturun yaradılması çərçivəsində bütün səylərini birləşdirəcək. Bəyannamə, eyni zamanda, ötən il beynəlxalq enerji koalisiyasının dəstəyi ilə hüquqi-iqtisadi əsası yaradılan "Xəzər-Qara dəniz-Avropa Yaşıl Enerji Dəhlizi"nin Asiya və türk dövlətləri ilə birləşdirilməsini də reallaşdıracaq. Nəzərə alsaq ki, bu dəhlizdə Rumıniya və Macarıstan da yer alır, bu baxımdan TDT həm də Avropa ölkələrini də öz ailəsinə qoşmuş olacaq.

Həmçinin, TDT-nin İqlim və Yaşıl Rəqəmsal Platformasının və İqlimə Davamlı Kəndlər Forumunun yaradılması təşəbbüsü də irəli sürülüb ki, bu da yaşıl arxitekturanın coğrafiyasını daha da genişləndirəcək. Belə ki, bu ideya türk dövlətlərinin bərpaolunan enerji mənbələrinin vahid bir platformada daha da sıx birləşdirilməsi, Avropa ilə Asiya arasında magistral Yaşıl İpək Yolunun işə düşməsini təmin edəcək.

**ELBRUS**

# 5-ci iclas...

## COP29 ilə əlaqədar Təşkilat Komitəsinin növbəti iclası keçirilib

İyulun 8-də BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) ilə əlaqədar Təşkilat Komitəsinin beşinci iclası keçirilib.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının rəhbəri, Təşkilat Komitəsinin sədri Samir Nuriyev COP29-a hazırlıq prosesinin Prezident İlham
Əliyevin daimi nəzarəti altında olduğunu qeyd edib.

Samir Nuriyev bildirib ki, Prezident İlham Əliyev iyulun 4-də keçirilmiş "Şanxay Əməkdaşlıq Təşkilatı plyus" formatında tədbirdə və iyulun 6-da Şuşada təşkil edilmiş Türk Dövlətləri Təşkilatının Dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşündə Azərbaycanın COP29 zamanı inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr arasında körpü yaratmaq və konsensusa nail olmaq üçün səylərini əsirgəməyəcəyini vurğulayıb. Təşkilat Komitəsinin sədri əlavə edib ki, Şuşa Zirvə görüşündə qəbul olunmuş "Qarabağ Bəyannaməsi"ndə qardaş türk dövlətləri COP29-da real nəticələrin əldə edilməsi istiqamətində Azərbaycanın ardıcıl səylərini dəstəkləyiblər.

Samir Nuriyev Prezident İlham Əliyevin Liderlər Sammitinə dəvətinə cavab olaraq tədbirdə iştirak edəcək dövlət və hökumət başçılarının sayının artdığını bildirib. O, Sammitə böyük marağın ölkəmizə hörmətin, Azərbaycanın nəhəng beynəlxalq tədbirləri yüksək səviyyədə təşkil etmək qabiliyyətinə inamın və yaşıl keçidlə bağlı qəti siyasi iradəsinə etimadın göstəricisi olduğunu vurğulayıb.

Prezident Administrasiyasının rəhbəri bildirib ki, Azərbaycan Hökuməti ilə BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Katibliyi arasında imzalanacaq "Ev Sahibi Ölkə" Sazişinin yekun mətni müvafiq dövlət qurumlarının rəylərinə nəzərə alınmaqla yaxın zamanlarda hazır olacaq.

Təşkilat Komitəsinin sədri 2024-cü il iyunun 3-13-də keçirilmiş Bonn iqlim konfransından sonra Azərbaycanın COP29 sədrliyinin aktiv mərhələsinə qədəm qoyduğunu qeyd edib.

Azərbaycanın COP29 prioritetləri barədə danışan Samir Nuriyev müxtəlif dövlət qurumlarının təklifləri əsasında, eləcə də BMT və digər beynəlxalq qurumlarla intensiv müzakirələr nəticəsində 14 təşəbbüsdən ibarət ilkin təkliflər siyahısının hazırlandığını bildirib.




Samir Nuriyev qeyd edib ki, artıq BMT ilə razılaşdırmaqla COP29-un tematik günlərinin bölgüsü aparılıb.

Azərbaycanın iqlim dəyişmələrinə qarşı mübarizədə dövlətlərlə yanaşı, qeyri-hökumət təşkilatları, beyin mərkəzləri ilə də əməkdaşlığa açıq olmasına toxunan Samir Nuriyev vurğulayıb ki, bir sıra nüfuzlu ecnəbi şəxslərdən ibarət COP29 Beynəlxalq Məşvərət Komitəsinin yaradılması istiqamətində işlər yekunlaşmaqdadır.

Sonra ekologiya və təbii sərvətlər naziri, COP29-un müəyyən edilmiş prezidenti Muxtar Babayev çıxış edərək, COP29-la bağlı ümumi gedişat, Bonn iqlim konfransının nəticələri, COP29 komandasının xarici səfərləri barədə məlumat verib.

Azərbaycan Respublikası Prezidentinin köməkçisi Anar Ələkbərov COP29-a hazırlıq çərçivəsində təşkilati-logistika sahəsində aparılan fəaliyyət, o cümlədən Bakı Olimpiya Stadionunda infrastrukturun qurulması üzrə başlanmış işlər barədə məlumat verib.

Xarici işlər naziri Ceyhun Bayramov ümumi substantiv məsələlər, Bonn iqlim konfransında yeni iqlim maliyyəsi hədəfi üzrə aparılmış danışıqlar, COP29 Sədrliyinin Fəaliyyət Gündəliyi, təşəbbüslər barədə çıxış edib.

Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev kommunikasiya məsələləri, o cümlədən xarici media ilə aparılan işlər barədə danışıb.

İnsan hüquqları üzrə müvəkkil (ombudsman) Səbinə Əliyeva COP29 üzrə həyata keçirilmiş fəaliyyət və nəzərdə tutulan tədbirlər barədə məlumat verib.

Fövqəladə hallar naziri Kəmaləddin Heydərov yanğın və texniki təhlükəsizlik sahəsində görülən tədbirlər barədə çıxış edib.

Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov paytaxtın COP29-a hazırlığı barədə danışıb.

Qida Təhlükəsizliyi Agentliyi sədrinin müavini Zəkiyyə Mustafayeva ictimai iaşə xidmətlərinin təşkili və bu istiqamətdə həyata keçirilən nəzarət tədbirləri barədə çıxış edib.

"DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzi" Məhdud Məsuliyyətli Cəmiyyətinin direktoru Nigar Məmmədova DOST İnklüziv xətti ilə COP29-la bağlı görülən işlər barədə danışıb.

İclasın sonunda COP29 Tədbirlər Planının icrası və digər aidiyyəti məsələlər üzrə tapşırıqlar verilib.

# Qarabağ Bəyannaməsinin ortaq maddəsi

## Türk dünyası Orta Dəhlizdə daha sıx birləşəcək

Şuşada keçirilən Türk Dövlətləri Təşkilatının qeyri-rəsmi Zirvə görüşündə Azərbaycanın dövlət başçısı regionda yeni nəqliyyat qovşaqlarının yaradılmasında TDT ölkələrinin yerləşdiyi əlverişli coğrafi imkanların üstünlüyündən danışaraq son illərdə intensivləşən Şərq-Qərb nəqliyyat dəhlizinin genişləndirilməsinin əhəmiyyətinə toxunub. TDT ölkələrinin yerləşdiyi Orta Dəhlizin ayrılmaz bir hissəsi olan Bakı-Tbilisi-Qars dəmir yolunun illik yükdaşıma qabiliyyətinin və Ələt Beynəlxalq Ticarət Limanının yükötürmə qabiliyyətinin artırılması, Xəzər dənizində 50-dən çox ticarət gəmisi olan Azərbaycanın Türk dövlətləri üçün önəmli tranzit xidmətləri göstərməsi bu vahid ideyaya söykənir.

TDT ölkələri tərəfindən imzalanan Qarabağ Bəyannaməsində dayanıqlı inkişaf, iqtisadi rifah və beynəlxalq ticarət üçün təməl daşı kimi Avropa-Türkiyə-Cənubi Qafqaz-Mərkəzi Asiya-Çini birləşdirən Trans-Xəzər Beynəlxalq Şərq-Qərb (Orta Dəhliz) dəhlizi vasitəsilə regional əlaqəni və inteqrasiyanı gücləndirmək niyyətlərini ifadə ediblər. Bu məqsədlə nəqliyyat-tranzit əməkdaşlığı sahəsində yeni vəzifə və öhdəliklər müəyyən edilib.

Qeyd edək ki, Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu Çin, Qazaxıstan, Xəzər dənizi, Azərbaycan, Gürcüstan və daha sonra Türkiyə və Avropa ölkələrinə qədər uzanan böyük bir nəqliyyat arteriyasıdır. Bu layihənin yaradıcılarından və əsas təşəbbüskarlarından biri Azərbaycandır. Respublikamız Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin modernləşdirilməsi, yolboyu mal və nəqliyyat vasitələrinə gömrük nəzarətinin sürətləndirilməsi üçün əhəmiyyətli tədbirlər görüb və qarşıdakı mərhələdə Gürcüstan və Türkiyə ilə birlikdə üçtərəfli səylərin artırılmasını planlaşdırır.




Son 2 ildə regionda yaranmış yeni geosiyasi düzənin fonunda meydana çıxmış nəqliyyat-logistika xətlərinin şaxələndirilməsi isə bu marşrutların çoxşaxəliliyinin təmin edilməsini daha da aktuallaşdırıb. Qırğızıstan və Özbəkistan Çinlə birgə dəmir yolu layihəsinin təşviqindən irəli gələrək gələcək planlarını məhz Orta Dəhlizə qoşulmaq istiqamətində qurub, eləcə də digər türk dövlətləri ilə bu istiqamətdə birgə əməkdaşlığın dinamikasını artırmaqdadır. Özbəkistan, Qırğızıstan və Qazaxıstanın dövlət başçılarının son dövrlərdə Azərbaycana səfərləri zamanı ən aktual mövzulardan biri kimi Trans-Xəzərin müzakirə olunması da türk dövlətləri Orta Dəhliz ideyasını vahid bir platforma kimi qəbul etdiklərini nümayiş etdirir. Bu baxımdan Qarabağ Bəyannaməsi bu nəqliyyat arteriyasının tam gücü ilə işləməsi və digər potensialların birləşdirilməsi baxımından strateji əhəmiyyət daşıyır.

Bəyannamədə Orta Dəhlizin daha rentabelli və dayanıqlı işləməsi üçün TDT ölkələri tərəfindən nəqliyyat və tranzit prosedurlarının optimallaşdırılması və rəqəmsallaşdırılması, daha çox yükdaşıma həcminin artırılması məqsədilə özəl sektor üçün stimullaşdırıcı mexanizmlərin tətbiqi nəzərdə tutulur. Bu məqsədlə tərəflər dəniz limanları, dəmir və avtomobil yolları, logistika qovşaqlarının əsaslı şəkildə yenidən qurulması və infrastrukturların təmirinə investisiyaların cəlb edilməsi, nəqliyyat əməliyyatları və gömrük prosedurlarının optimallaşdırılması üçün üzərinə öhdəliklər götürüb. Ötən ilin sonlarında Orta Dəhliz boyu "Bir pəncərə" prinsipindən istifadə edilməsi, rəqəmsal tranzit gömrük prosedurlarının sadələşdirilməsi, yük və nəqliyyat vasitələrinin sərhədkeçmə proseslərinin sürətləndirilməsi mexanizmlərinin hazırlanması məqsədilə Azərbaycan, Türkiyə, Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Türkmənistan, Tacikistan və Gürcüstan gömrük xidmətlərinin rəhbərləri, eləcə də Ümumdünya Gömrük Təşkilatının və Türk Dövlətləri Təşkilatının rəhbərliyi, BMT-nin Avropa üçün İqtisadi Komissiyasının nümayəndələri bir araya gələrək bu layihənin xüsusi əhəmiyyətini bəyan ediblər. Bunun nəticəsi kimi qeyd edilən portalı ərsəyə gətirib və bu Rəqəmsal Orta Dəhlizinin də artıq formalaşması deməkdir.

Azərbaycan gömrük xidmətinin təşəbbüsü ilə hazırlanan Transxəzər Gömrük Tranzit Portalı xidmətlərin asan və şəffaf bir pəncərədə birləşdirən sistemdir. Orta Dəhliz ölkələrinin gömrük orqanları tərəfindən elektron şəkildə təqdim edilən sənəd və məlumatların öncədən emalı hesabına yüklərin tranzit ölkələrin ərazisindən sürətli keçidini təmin edən, quru və dəniz limanları arasında multimodal daşınmalar üçün səmərəli nəzarətə şərait yaradan, yaşıl mühitə töhfə verən rəqəmsal qovşaqdır. Bu sistem gömrük nəzarətinin müasir formulu kimi optimal nəzarət formasını təmin edir, könüllü riayətetmə mədəniyyəti formalaşdırır, sahibkarlar, daşıyıcılar və digər iqtisadi operatorların gömrük yüklülüyünü onların üzərindən götürür, onların logistik işini asanlaşdırır, bununla yanaşı, vaxt itkisinin qarşısını alır, xərcləri azaldır.

Hazırda TDT-nin xüsusi maraq və diqqətində olan Zəngəzur dəhlizi Trans-Xəzərin mühüm tərkib hissəsi hesab olunmaqla Çin-Mərkəzi Asiya-Avropa bloku üzrə nəqliyyat əlaqələrinin şaxələndirilməsini təmin edəcək ən qısa dəhliz kimi strateji əhəmiyyətini artırır. Beləliklə, Qarabağ Bəyannaməsi çoxməzmunlu iqtisadi hədəflər toplusu olmaqla əsas hədəflərdən biri olan Orta Dəhliz quruculuğunun hüquqi-iqtisadi sütunlarından birinə çevriləcək.

**E.CƏFƏRLİ**

# Avropanın Şuşa qorxusu...

## Qərb ermənipərəstliyi Borrelin “dili” ilə məğlubiyyətini etiraf edir

Qərbin uzun illərdir apardığı diskriminasiya son bir neçə ildə daha bariz ştrixlərlə üzə çıxır. Xüsusilə, Şərqə münasibətdə və ya hətta öz daxilində belə “qeyri-Avropa” kontingenti formalaşdırmağa çalışması Qərbi ələ verir - “köhnə dünya” yeni dünyaya yumşaq desək, “məğlub olduğunu” etiraf etməsə də, proseslərin inkişafından narahat olduğunu bütün konturları ilə büruzə verir. Qərb aşkar şəkildə illərlə kölgəsinə sığındığı “dəyərlər kompleksini” hətta ayaqladığını, demokratik düşüncə və ya yanaşma problemi yaşadığını, ayrımçılığı, bölücülüyü hədəflədiyini ortaya qoyur. Özünə münasibətdə belə davranışlarını korrektə edə bilməyən Qərb günahkarı da uzaqda axtarmır - sülh və əməkdaşlıq uğrunda səy göstərənləri “düşmən” elan etməkdən çəkinmir...

### Qərb demarşı: Orbanın “kontr-qərbçi”likdə “ittiham edilməsi”

Qeyd etdiyimiz nüanslar, son günlərdə daha çox diqqəti cəlb etməyə başlayıb. Artıq aylardır ki, Qərbin Macarıstana qarşı yürütdüyü “iç səlib yürüşü”nün sərhədləri günü-gündən genişlənir. Ukraynaya silah yardımı üçün maliyyə ayrılmasına etiraz edən Budapeşti “zərərsizləşdirmək üçün” hətta mənsub olduqları qitə birliyinin - Avropa İttifaqının nizamnaməsini belə pozmaqdan çəkinməyən Qərb yeni və yersiz ittihamlarla öz patronajlığını sübut etməyə çalışır. Adi bir fakt - hazırda Aİ-yə sədrlik edən Macarıstanın sülh uğrunda davranışları, bölgəsəl əməkdaşlıq nümunəsi sərgilməsi (həm Aİ sədri, həm də TDT-nin müşahidəçi qismində üzvü kimi), ən əsası isə yeni iqtisadi-ticari situasiyada təmsil etdiyi Qərbin lehinə çevriləcək nüanslar formalaşdırması üçün etdiyi cəhdlər təəssüf ki, səhv yozulur - daha doğrusu, fərqli istiqamətlərə “yönləndirilir”. Macarıstanın baş naziri Viktor Orbanın son günlərdə Kiyev, Şuşa, ardından Moskva və Pekinə səfər etməsi Qərb dünyasını qıcıqlandırır - bu, bütün detallar üzrə bəlli olur. Kimlərsə, Orbanı ittiham etməyə, kimlərsə onun statusunu “azaltmağa” çalışır, kimlərsə bu addımları kontr-Qərb hərəkətlənməsi kimi qələmə verir. Əslində isə...




### İki “açıqlama”: hədəf də, qorxu da eynidir...

Məsələnin mahiyyətinə varmaq üçün konkret misallara baxaq. Avropa İttifaqının (Aİ) xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Cozef Borrel Macarıstanın Baş naziri Viktor Orbanın Şuşa sammitində iştirakı ilə bağlı açıqlama verib. Aİ rəsmisinin sözlərinə görə, Orban Şuşa zirvəsində Avropa İttifaqını təmsil etməyib. “Macarıstanın Baş naziri Viktor Orban iyulun 6-da Azərbaycanın Şuşa şəhərində keçirilən Türk Dövlətləri Təşkilatının (TDT) sammitində Avropa İttifaqını təmsil etməyib.

Və ya... Avropa Parlamentinin deputatı Natali Luazo (bu ad Azərbaycan ictimaiyyətinə yaxından tanışdır və bu şəxsin qatı ermənipərəst mövqeyinin ifşası ilə bağlı qəzetimizdə bir sıra materiallar dərc edilib) Viktor Orbanın Türk Dövlətləri Təşkilatının Qarabağda keçirilən sammitində iştirakını Aİ üçün qalmaqal sayıb. Viktor Orbanın Türk Dövlətlərinin Sammitində Şimali Kipr təmsilçisi ilə, hətta Qarabağ şəhərində (?) iştirakı Macarıstan üçün biabırçılıq, Avropa üçün isə qalmaqaldır. Macarıstanın Baş naziri Orban Kipr problemini şübhə altına alırmı? “- Luazo X sosial şəbəkədə qeyd edib.

Göründüyü kimi, bu iki açıqlama təxminən eyni “hədəfə” istiqamətlənib - Macarıstanın Qərbin sifarişini və ya əmrini sözsüz icra etməməsindən yaranan qorxu və ya narahatlıqlar, eyni zamanda Şimali Kipr Cümhuriyyətinin də müşahidəçi qismində üzvü olduğu yeni regional güc mərkəzinin gələcək perspektivindən çəkinmək. Məsələlərə bu iki detal üzrə yanaşdıqda, Aİ-nin Pekin və Moskva səfərlərinə də etirazının arxasındakı şifrə anlaşılır.

Yeri gəlmişkən, Baş nazir Viktor Orban X səhifəsində Avropa Birliyinin baş diplomatı Borrelin Şuşadakı zirvə ilə bağlı atmacalarına cavab verib. Orban yazıb: “Siz Brüsseldə rahat kresloda barış yarada bilməzsiniz. Aİ-nin sədrliyi Aİ adından danışıqlar aparmaq səlahiyyətinə malik olmasa belə, siz arxası üstə uzanıb, müharibənin möcüzəvi şəkildə sona çatacağına ümid edə bilməzsiniz. Biz sülhə doğru ilk addımların atılmasında mühüm vasitəçi rolunu oynayacağıq. Bizim sülh missiyamızın məqsədi də budur”.

Beləliklə, Orban bir daha Borreli və onun kimilərini ifşa edərək müharibələrin davam etməsində, onların qarşıdurmaların körüklənməsində maraqlı olduqlarını ortaya qoyub...

Orbanın rəhbərlik etdiyi Macarıstan sözün əsl mənasında Qərb dünyası içində bir “ada”dır - bu “ada” Aİ üzvü, hətta sədri olsa da, qurumun təzyiqləri ilə üzləşir. Səbəb bəllidir - müharibənin dayandırılması və dövlət maraqları çərçivəsində çıxış etməsi. Orbanın davranışları özündə konkretliyi əks etdirir - Budapeşt öz maraqları müstəvisində Azərbaycan və Türkiyə başda olmaqla Türk dünyası, iqtisadi maraqları müstəvisində Rusiya, perspektiv münasibətlər çərçivəsində Pekin ilə əlaqələrini uzlaşdırır. Təbii ki, Borrelin “Şuşa etirazı”nın arxasında həm də Türk dünyasının, dolayısı ilə Azərbaycanın yaratdığı yeni siyasi-iqtisadi situasiyanın qorxusu dayanır. TDT-nin aparıcı güclərindən biri kimi Azərbaycan bu gün Çin və Rusiya ilə strateji əlaqələrə malikdir, Türkiyə ilə müttəfiqdir, Aİ-nin bir çox ölkələrinin enerji təhlükəsizliyinin təminatçısıdır. Ötən 4 ildə özünün ərazi bütövlüyünü və suverenliyini bərpa etməsi isə Azərbaycanın özünün müəyyənləşdirdiyi strateji yol xəritəsinin varlı-

### Borrelin qorxusu: ermənipərəst Qərb maraqlarının “dəfni” reallaşır

ğından xəbər verir - Borel anlayır ki, Orbanın Şuşaya səfər etməsi Macarıstan üçün yüksək dividend vəd etdiyi qədər imperialist və ermənipərəst Qərb maraqlarının “dəfnini” reallaşdırır. Artıq Aİ-nin və ya bir başqa qurumun “anti-Azərbaycan”, ermənipərəst qətnamələrinin bir qara qəpiklik qiyməti qalmır. Aİ sədrinin ziyarət etdiyi şəhəri, Azərbaycan prezidenti ilə yanaşı addımladığı şəhəri necə şübhə altına ala bilərsən? Borrelin tələm-tələsik verdiyi “bəyanatın” şifrəsi budur. O və onun kimiləri qorxurlar ki, Şuşaya, Xankəndinə, Qarabağa düzənlənən səfərlər Borel və onun kimi erməni dəstəvuzçularının bütün oyununun üstündən xəttt çəkir. Nəticədə reallıq da budur - Azərbaycan bütün dünyaya bu şəhərin və bütövlükdə Qarabağın əsl sahibinin kimliyini nümayiş etdirir...

### Yeni iqtisadi nizamın məkanı: Avrasiyanın mərkəzi...

O ki qaldı, Moskva və Pekin səfərlərinə, Kiyevi ziyarət etmə məsələsinə, Borrel və onun kimi müharibə, kataklizm, qarşıdurma tərəfdarlarının kürkünə birənin düşməsinin səbəbləri müxtəlifdir.

-Macarıstan və Türkiyənin ortaq sülh davranışları mütləq nəticənin əldə olunmasına daha münbit şərait yaradacaq;

- Pekinlə məsləhətləşmələr yeni dövrdə formalaşacaq iqtisadi-siyasi məzmunu Qərb imperializminin ən böyük siyasi rəqibinə çevirəcək - burada əsas detal kimi yenə də TDT önə çıxır;

- Sülh çağırışlarının iqtisadi əsaslandırmaları masa üstünə qoyulur.

Son tezis daha cəlbedicidir. XXI əsrin yaşadığımız onilliyinin ən əsas komponentinin “yol mübarizəsi” olduğunu nəzərə alsaq, Macarıstan yeni iqtisadi yolun mühüm bir parçası olmaq üçün səylər göstərir. Doğru yolda olduğu qədər, ölkəsinin maraqlarını da doğru yoldan müdafiə edən baş nazir Orban bunun üçün Kiyevə öz “məsləhətlərini” verir. Aİ sədrinin Moskvaya səfəri sülh üçün mesajdırsa, Pekinə səfəri yeni iqtisadi nizamda yer almaq istəyindən qaynaqlanır. Yeni iqtisadi nizamın əsas oyunçuları isə heç də “köhnə qitədə” yerləşmir - yeni geocoğrafi parametrlər artıq Avrasiyanın mərkəzini göstərir: Macarıstanın da ziyarət etdiyi Şuşanın yaxınlığını, Zəngəzur dəhlizini və yeni Türk Birliyini...

**P.İSMAYILOV**

# TDT-nin Şuşa sammiti beynəlxalq medianın diqqətində...

## Türkiyə, ŞKTC və İsveçin media orqanları qeyri-rəsmi Zirvə görüşünü geniş işıqlandırıb

Türkiyə və Şimali Kipr Türk Cümhuriyyətinin (ŞKTC) aparıcı xəbər agentlikləri, televiziya kanalları və mətbu nəşrləri iyulun 6-da Şuşada keçirilən Türk Dövlətləri Təşkilatının (TDT) qeyri-rəsmi Zirvə görüşünü geniş işıqlandırıblar.

“Sabah” qəzeti Şuşa Zirvə görüşü barədə “Bizim gücümüz birliyimizdədir” sərlövhəli məlumat verib. Materialda Azərbaycan Prezidenti İlham Əliyevin XXI əsrin türk dünyasının inkişaf və tə-




rəqqi dövrünə çevrilməsinin zəruriliyi haqqında söylədiyi fikirlər sitat gətirilir. Bu görüşün türk dövlətləri arasında əlaqələrin daha da konsolidasiyası və möhkəmləndirilməsi baxımından əhəmiyyəti vurğulanır.

Türkiyənin NTV telekanalı hazırladığı reportajda Türkiyənin xarici işlər naziri Hakan Fidanın tezliklə türk dünyasının vahid əlifbasını yaratmaq çağırışına diqqət çəkib. DHA və Anadolu xəbər agentlikləri Türkiyənin vitse-prezidenti Cevdet Yılmazın Şuşadakı çıxışı barədə ətraflı məlumat veriblər. Materiallarda Türkiyə nümayəndə heyətinin rəhbərinin Qarabağın tarixən Azərbaycana məxsus olduğu, Ankaranın BMT-nin İqlim Dəyişmələri üzrə 31-ci Konfransına (COP31) ev sahibliyi etməyə hazır olması və Orta Nəqliyyat Dəhlizinin inkişafının əhəmiyyəti barədə söylədiyi fikirlərə diqqət yetirilir.

“Hürriyyət” qəzetinin yazılarında Ankaranın Ermənistanla dialoqa dair mövqeyi, vahid türk əlifbasının yaradılması, Türkiyənin Ukraynada müharibəyə son qoymaq səyləri və ŞKTC xalqının hüquqlarının təmin edilməsinin vacibliyinə diqqət yetirilir. Nəşr Türkiyənin xarici işlər naziri Hakan Fidanın çıxışından bəhs edərək, onun Yaxın Şərqdə qırğını dayandırmağın zəruriliyi ilə bağlı sözlərini sitat gətirir: “Türk dünyası bölgədəki humanitar dramdan üz çevirməməlidir”.

ŞKTC mediası da Şuşada Türk Dövlətləri Təşkilatının dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşünün türk dünyasında birlik və əməkdaşlıq baxımından əhəmiyyətindən yazıb. Şimali Kiprin BRTK telekanalı ŞKTC Prezidenti Ersin Tatar və Türk Kiprin xarici işlər naziri Tahsin Ərtoğruloğlunun Şuşadakı çıxışları barədə oxuculara məlumat verib, Azərbaycanın mədəniyyət paytaxtından reportajlar hazırlayıb, canlı yayımlar edib. Telekanal ŞKTC rəhbərliyinin Azərbaycanda keçirilən Türk Dövlətləri Təşkilatının dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşünə dəvət olunmasının əhəmiyyətinə diqqət çəkib və sammitin təşkilini yüksək qiymətləndirib.

“Halkın Sesi” və “Kıbrıs Hakikat” qəzetləri də Şuşa Zirvə görüşünün mövzusu ilə bağlı bir sıra xəbərlər dərc edərək, Kipr türklərinin lideri və ölkənin xarici işlər nazirinin rəhbərinin Şuşada çıxışlarından ətraflı bəhs edib. “Kıbrıs Postası” nəşri Şimali Kipr diplomatiyasının başçısının Azərbaycandakı çıxışı ilə bağlı ayrıca xəbər hazırlayıb. “Ərtoğruloğlu türk dünyasının liderlərinə Lefkoşanın üstünlükləri barədə məlumat verib, onun əməkdaşlığa və ŞKTC-nin inkişafına hazır olduğunu vurğulayıb”, - deyə qəzet yazır.

İsveçin “CawaMedia” agentliyinin saytında da Türk Dövlətləri Təşkilatına həsr olunmuş məqalə dərc olunub. “Türk ölkələri qlobal ticarəti dəyişir və gələcəyə sərmayə qoyurlar” sərlövhəli məqalədə qədim Böyük İpək Yolu dövründə kök salmış və Beynəlxalq Türk Akademiyası ilə birgə üzv ölkələr arasında əlaqələrin möhkəmləndirilməsi, dialoqun, mədəni mübadilənin və strateji tərəfdaşlığın təşviqi üçün müasir platformaya çevrilən Türk Dövlətləri Təşkilatında birləşən türk xalqlarının ortaq irsindən bəhs edilir.

Nəşrdə Çini Qazaxıstan, Xəzər dənizi, Azərbaycan, Gürcüstan və Türkiyə vasitəsilə Avropa ilə birləşdirən və bununla da tranzit müddətini 19 gündən 12 günə endirən “Orta Dəhliz” kimi tanınan Bey-




nəlxalq Trans-Xəzər Nəqliyyat Marşrutu haqqında geniş məlumat təqdim olunub. Dünya Bankının proqnozlarına görə, 2030-cu ilə qədər Orta Dəhliz ildə 10-11 milyon ton yük emal edə biləcək.

“CawaMedia” qeyd edir ki, türk ölkələri nəqliyyat sektoru ilə yanaşı, tədqiqatlar, təhsil və rəqəmsal infrastruktur sahələrində, eləcə də Azərbaycanın Xəzər nefti və qazının dünya bazarlarına nəqlində həlledici rol oynadığı enerji və texnologiya sektorlarında əməkdaşlıq edirlər.

“Türk dünyası tarixin həlledici anını yaşayır. Bu ölkələr XXI əsrin yeni İpək Yolunu yaradırlar. Türk əməkdaşlığının bu canlanması qədim tacirlərin xəyal etdiyi şəkildə Şərqlə Qərbi birləşdirən yeni iqtisadi yüksəliş və mədəni fəallıq dövründən xəbər verir. Dünya türk xalqlarının uzun və zəngin tarixinin növbəti fəslini necə yazdığını diqqətlə izləməlidir”, - deyə nəşrdə qeyd edilir.

Qeyd edək ki, baş ofisi Stokholmda yerləşən “CawaMedia” milli media nümayəndələrini birləşdirir və bütün dünyada media qurumları və tanınmış fotojurnalistlərlə fəal əməkdaşlıq edir.

**NARDAR**

# Qərbi azərbaycanlıların doğma torpaqlarına qayıtması üçün niyə təminat tələb edilmir?

## Bakıda “Qərbi Azərbaycana qayıdışın tarixi, mədəni və hüquqi əsasları” mövzusunda beynəlxalq konfrans keçirilib

İyulun 8-də Bakıda “Qərbi Azərbaycana qayıdışın tarixi, mədəni və hüquqi əsasları” mövzusunda beynəlxalq konfrans keçirilib.



AZƏRTAC xəbər verir ki, “İmza” Sosial İnkişafa Dəstək İctimai Birliyinin təşkilatçılığı ilə keçirilən konfransda dünyanın müxtəlif ölkələrindən tanınmış alimlər, hüquqşünaslar, mədəniyyət xadimləri və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Konfransın məqsədi Qərbi Azərbaycan ərazilərinə tarixi, mədəni və hüquqi baxışlar əsasında qayıdışın yollarını müzakirə etməkdir.

Tədbirdə çıxış edən “İmza” Sosial İnkişafa Dəstək İctimai Birliyinin İdarə Heyətinin sədri Xəyyam Əsgərov bildirib ki, Azərbaycan 30 il ərzində erməni separatizminə qarşı mübarizə aparıb. Prezident İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Ordumuz 44 günlük Vətən müharibəsində Zəfər qazanıb, ərazi bütövlüyümüzü bərpa edib. Bu gün Azərbaycan Qarabağda və Şərqi Zəngəzurda bərpa-yenidənqurma işləri həyata keçirir, keçmiş məcburi köçkünlərimiz öz doğma yurdlarına qayıdırlar. Qərbi azərbaycanlı vətəndaşlarımız da öz dədə-baba yurdlarına qayıdıb orada yaşamalıdırlar.

Qərbi Azərbaycan İcmasının İdarə Heyətinin sədri Əziz Ələkbərli çıxışında tədbirin mövzusunun aktuallığına və əhəmiyyətinə toxunub. Bildirib ki, son 200 ildə Qərbi Azərbaycanda yaşayan soydaşlarımıza qarşı Ermənistan tərəfindən deportasiya, soyqırımı siyasəti həyata keçirilib. Soydaşlarımız etnik təmizləməyə məruz qalıb, ermənilər hər tarixi fürsətdə onları doğma yurdlarından qovub çıxarıblar.

Ə.Ələkbərli əcdadlarımızın həmin ərazilərdə yaratdığı mədəni-mənəvi dəyərlərin də vandalizmə məruz qaldığını söyləyib. Qeyd edib ki, ermənilər bu ərazilərə gəldikdən sonra oradakı Azərbaycan izlərini yer üzündən silmək siyasəti yürüdüblər. Bizim tarixi abidələrimiz ya erməniləşdirilib, ya da tamamilə məhv edilib.

Konfransda çıxış edən Türkiyənin Azərbaycandakı sabiq səfiri, “İmza” Sosial İnkişafa Dəstək İctimai Birliyinin Türkiyə təmsilçisi Hulusi Kılıç diqqətə çatdırıb ki, Qərbi Azərbaycanda yaşayan 380 mindən çox Azərbaycan türkü zorla evlərindən çıxarılıb, bütün mülkləri müsadirə edilib. Bu gün Ermənistanı müdafiə edənlər Qarabağdan öz arzuları ilə çıxan ermənilərin geri dönmələri üçün təminat istəyirlər. Bəs niyə 380 mindən çox Qərbi azərbaycanlının doğma torpaqlarına qayıtması üçün təminat tələb edilmir?

Hulusi Kılıç, həmçinin deyib ki, ermənilər Azərbaycan torpaqlarındakı tarixi izləri dəyişdiriblər. Bu gün dünyada heç kim bu barədə danışmır. Bu, azmış kimi, hətta Ermənistanı müdafiə edirlər. Biz beynəlxalq ictimaiyyətin diqqətini bu məsələyə yönəltmək istəyirik. Türkiyə olaraq biz hər zaman Azərbaycanın haqlı mübarizəsində yanında dayanmışıq, bundan sonra da olacağıq.

Tədbir mövzu ətrafında çıxışlarla davam edib. Çıxışlar zamanı Qərbi Azərbaycanın qədim dövrlərdən bəri xalqımızın doğma vətəni olduğunu sübut edən faktlar təqdim edilib. Həmçinin Qərbi Azərbaycan ərazilərində Azərbaycanın mədəni irsi və bu irsin qorunması, yenidən canlandırılması yolları müzakirə olunub. Beynəlxalq hüququn normalarına əsaslanaraq, Qərbi Azərbaycan ərazilərinə qayıdışın hüquqi aspektləri və bu prosesi həyata keçirmək üçün hüquqi mexanizmlərə diqqət çəkilib.

# Qayğı iqtisadiyyatında qadınların rolu

## Mərakeşdə mühüm konfrans...

*Yeganə BAYRAMOVA*

Bu yaxınlarda Mərakeş Krallığının paytaxtı Rabat şəhərində ölkəmizdə gender fərqlərinin aradan qaldırılması istiqamətində görülən işlərlə bağlı I Beynəlxalq Konfrans keçirilib. Konfransın mövzusu "Qayğı iqtisadiyyatı və sosial müdafiə: Qadınların səlahiyyətləndirilməsi, iş imkanları və rifahının təmin edilməsinin əsasları" adlanır.

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsindən verilən məlumata görə, konfrans zamanı "Qayğı iqtisadiyyatında qadınların gücləndirilməsi, ailənin möhkəmliyi və rifahının artırılması" mövzusunda müzakirələr aparılıb. Təşkil olunan yüksək səviyyəli plenarda çıxış edən komitə sədri Bahar Muradova iki ölkə arasında bir çox istiqamətlərdə, o cümlədən ailə və sosial məsələlər sahəsində əməkdaşlığın intensivləşdiyini bildirib. Komitə sədri qeyd edib ki, bu əlaqələrin möhkəmləndirilməsi və şaxələndirilməsi üçün səylər artırılır.

**"Qadın qolu"nun yaradılması...**

B.Muradova ötən il Qoşulmama Hərəkatına üzv dövlətlərin sosial sahəyə məsul nazirlərinin Bakıda keçirilən konfransına diqqət çəkib. O, Azərbaycanın təşəbbüsü ilə təşkilatın "Qadın qolu"nun yaradılması barədə bəyannamənin qəbul olunduğunu qeyd edib.

Bundan başqa, komitə sədri qayğı iqtisadiyyatının sosial müdafiə çərçivəsində inteqrasiya olunmasının daha inklüziv və ədalətli bir cəmiyyət qurmaq üçün şərait yaradılmasının əhəmiyyətindən bəhs edib. B.Muradova belə şəraitin yaradılması nəticəsində ehtiyacı olan insanların daha yaxşı və əlçatan xidmətlərə malik olması, həmçinin qadınların səlahiyyətləndirilməsi üçün böyük potensial yarandığını deyib.



**Məşğulluq sahəsində gender fərqi...**

B.Muradova vurğulayıb ki, hazırkı dönəmdə qazanılmış tarixi Qələbədən sonra regionda sülh yaratmağa çalışan Azərbaycanda sosial-iqtisadi siyasətin əsas prioritetlərindən biri də məhz işğaldan azad olunmuş ərazilərə qısa zamanda daha çox əhalini qaytarmaq, onların təhlükəsiz yaşamına və məşğulluğunun təmin edilməsinə nail olmaqdır. Komitə sədri ölkəmizdə müvafiq sahədə qəbul edilən normativ-hüquqi aktlara və qanunvericiliyə edilən dəyişikliklərə diqqət çəkib. O, qeyd edib ki, məşğulluq sahəsində gender fərqinin aradan qaldırılması və iqtisadi bacarıqlarının artırılması məqsədilə müvafiq dəstək proqramları həyata keçirilir.

**Qadınlara bəzi müavinətlər nəzərdə tutulub**

B.Muradova eyni zamanda "Azərbaycan-2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" sənədi çərçivəsində qəbul olunmuş "2022-2026-cı illərdə sosial iqtisadi inkişaf Strategiyası" barədə məlumat verib. O, sözügedən sənəd çərçivəsində həyata keçirilməsi hədəflənən işlər barədə danışıb. Qeyd olunub ki, bu istiqamətdə həyata keçirilməsi planlaşdırılan əsas hədəflərdən biri sosial ödənişlərin ünvanlı və aztəminatlı ailələr üçün yönəldilməsidir. Komitə sədri bu məqsədlə milli qanunvericilikdə qadınlar üçün bir sıra sosial müavinətlərin nəzərdə tutulduğunu vurğulayıb.

**Ən mühüm vəzifələrimizdən biri...**

Bundan başqa, komitə sədri bildirib ki, qarşıda duran ən mühüm vəzifələrdən biri də ölkəmizdə ailə institutunun möhkəmləndirilməsi, ailə dəyərlərinin qorunmasıdır. B.Muradova diqqətə çatdırıb ki, ölkələrimizdə hərtərəfli qayğı iqtisadiyyatının inkişafını gücləndirmək, ailələrimizin möhkəmliyini qoruyub saxlamaq və bu əsasda qadınlarımızın güclənməsinə nail olmaq üçün yaşıl iqtisadiyyatın inkişafına və ekoloji mühitin sağlamlığının qorunub saxlanılmasına da ciddi formada çalışmalıyıq.

COP29-un bu il Azərbaycanda keçiriləcəyini xatırladan komitə sədri bu məqsədlə 2024-cü ilin ölkəmizdə "Yaşıl dünya naminə həmrəylik ili" elan edildiyini söyləyib. Eyni zamanda, qəbul edilmiş fəaliyyət planı üzrə bir çox layihələrin icra olunduğunu diqqətə çatdırıb.

**Qarşılıqlı təcrübə mübadiləsi töhfə verəcək**

Sonda B.Muradova yüksək səviyyəli tərəflər konfransı çərçivəsində qadınların gücləndirilməsi və ailələrin rifahının yaxşılaşdırılması istiqamətində mövzuların müzakirəsinin mühüm dəyişikliklərlə nəticələnəcəyini bildirib. Həmçinin qarşılıqlı təcrübə mübadiləsinin ölkələrimizdə sosial müdafiə sisteminin gücləndirilməsi və bərabər imkanlar şəraitində bərabərliyi təmin etmək sahəsindəki işə böyük töhfə verəcəyinə inamını ifadə edib.

Daha sonra digər çıxışlar dinlənilib və konfrans panel sessiyalarla davam edib. Qeyd edək ki, konfransa 20-yə yaxın ölkəni təmsil edən aidiyyəti nazir və qurum rəhbərləri də daxil olmaqla, 900-ə yaxın iştirakçı qatılıb.

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Məqalə "Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi"nin maliyyə dəstəyi ilə "Gender, ailə və demoqrafiya məsələlərinin işıqlandırılması" istiqaməti üzrə hazırlanmışdır**

# İranın yeni prezidenti - Məsud Pezeşkian...

## Azərbaycan əsilli cərrah ikinci turda səslərin yarıdan çoxunu qazandı

İran İslam Respublikasında keçirilən prezident seçkilərinin ikinci turunda islahatçı namizəd Məsud Pezeşkian qələbə qazandı. İranın Seçki Qərargahının rəsmi nümayəndəsi Mohsen Eslami bildirib ki, 30,53 milyon bülletenin hamısının emalının nəticələrinə əsasən, İranın yeni prezidenti Pezeşkiyan 16,384 milyon səs toplayıb. Bu isə səslərin 53,6 faizi deməkdir. Digər namizəd, İran ali dini liderinin Ali Milli Təhlükəsizlik Şurasındakı nümayəndəsi Səid Cəlili 13,538 milyon - 44,3 faiz səs toplayaraq ikinci turda da ikinci olub. Prezident seçkilərində seçici fəallığı isə 49,8 faiz təşkil edib. Qeyd edək ki, İran prezidenti ali dini rəhbərdən sonra dövlətin başçısı sayılır. Prezidentin vəzifələrinə konstitusiyanın müddəalarını həyata keçirmək və icra hakimiyyətinə rəhbərlik etmək daxildir. İranın xarici siyasətinin ümumi istiqaməti yeni prezidentdən asılı olacaq.

## Azərbaycan Prezidenti təbrik etdi...



Prezident İlham Əliyev İran İslam Respublikasının yeni seçilmiş Prezidenti Məsud Pezeşkiana təbrik məktubu ünvanlayıb. Məktubda Məsud Pezeşkianı İran İslam Respublikasının Prezidenti vəzifəsinə seçilməsi münasibətilə təbrik edən Prezident İlham Əliyev vurğulayıb ki, Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında ortaq dini-mədəni köklər, dostluq və qardaşlıq kimi möhkəm təməllər üzərində qurulmuş münasibətlərə böyük əhəmiyyət veririk: "Ötən onilliklər ərzində qarşılıqlı faydalı əməkdaşlığımızın bütün sahələrdə, xüsusilə də iqtisadiyyat, nəqliyyat, energetika və humanitar sahələrdə dinamik inkişaf edərək bugünkü səviyyəyə yüksəlməsi və yeni məzmun kəsb etməsi bizi sevindirir. Bu gün qarşılıqlı hörmətə və mehriban qonşuluğa əsaslanan Azərbaycan-İran əlaqələrinin gələcək inkişaf istiqamətlərinə dair əldə edilmiş razılaşmalar, icra olunan birgə layihələr ölkələrimizin rifahına, bütövlükdə regionun davamlı inkişafına və təhlükəsizliyinə xidmət edir. Əminəm ki, birgə səylərimizlə xalqlarımızın və ölkələrimizin mənafeləri naminə Azərbaycan ilə İran arasında ənənəvi dostluq münasibətlərinin daha da möhkəmlənməsinə, qarşılıqlı maraq doğuran əməkdaşlığın genişlənməsinə nail olacağıq. İkitərəfli əməkdaşlığımızın inkişaf perspektivləri ətrafında fikir mübadiləsi aparmaq məqsədilə Sizi Azərbaycana səfərə dəvət edirəm".

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan da Məsud Pezeşkianı təbrik edib. İRNA-nın yaydığı məlumatda bildirib ki, Ərdoğan Pezeşkianı 14-cü İran Prezidenti seçilməsi münasibətilə təbrik edib, bu böyük məsuliyyətli işdə uğurlar arzulayıb. "Ümid edirəm ki, seçkilərin nəticələri dost və qardaş İran xalqı üçün xeyir və bərəkət mənbəyi olacaq". İnanıram ki, prezidentliyiniz dövründə ölkələrimiz arasında əməkdaşlıq daha da güclənəcək. Bu mənada sizinlə əməkdaşlıq etməkdən məmnun olduğumu bildirmək istərdim. Sizə cansağlığı və xoşbəxtlik, dost və qardaş İran xalqına rifah və xoşbəxtlik arzulayıram", - deyə təbrikdə qeyd olunub.

## Xamenei çağırış etdi, Pezeşkian sələfləri ilə görüşdü...

Qeyd edək ki, artıq İran İslam Respublikası Konstitusiyasının Nəzarət Şurası da prezident seçkisinin nəticələrini təsdiqləyib. Bu barədə şuranın nümayəndəsi Hadi Təhanə Nəzif məlumat verib. Bildirilib ki, ikinci turda iştirak edən digər namizəd şikayət etməyib. İranın ali dini lideri Ayətullah Əli Xamenei isə İranın yeni prezidenti Məsud Pezeşkianı sələfi İbrahim Rəisinin kursunu davam etdirməyə çağırıb. Telegram kanallarının yaydığı məlumata görə, dini lider qeyd edib ki, əvvəlki kursun davam etdirilməsi İran xalqının firavanlığına və ölkənin uğurlarına gətirib çıxaracaq.

Məsud Pezeşkian isə dövlət başçısı seçiləndən həmən sonra İranın sabiq prezidenti Seyid Məhəmməd Xatəmi ilə görüşüb. Keçmiş prezident Pezeşkiana müvəffəqiyyət arzulayıb. Məsud Pezeşkianın keçmiş prezident Həsən Ruhani ilə də görüşdüyü bildirilir. Xatırladaq ki, seçki kampaniyası dövründə hər iki keçmiş prezident Pezeşkianı dəstəklədikləri ilə bağlı bəyanat vermişdilər.

## Vaşinqtondan seçki açıqlaması...

İranda keçirilən prezident seçkiləri ABŞ-da da diqqətlə və maraqla izlənib. ABŞ Dövlət Departamentinin seçkinin nəticələri ilə bağlı rəsmi məlumatında bildirilib ki, prezident seçkilərinin nəticələri ABŞ-ın bu ölkə ilə bağlı siyasətinə təsir etməyəcək. Dövlət Departamenti rəsmisinin sözlərinə görə, Vaşinqtonun Tehranla bağlı narahatlığı "dəyişməmiş" olaraq qalır. "Bununla birlikdə biz Amerikanın maraqlarına xidmət edən diplomatiyaya sadiq qalırıq", - deyə, vurğulanıb.

ABŞ hakimiyyəti İrandakı seçkilərin azad və ədalətli keçirilmədiyi barədə mövqeyini təkrarlayıb. "Biz bu seçkinin İranın inkişafı istiqamətində əsaslı dəyişikliklərə və ya vətəndaşların insan hüquqlarına daha çox hörmətlə yanaşılacağına gətirib çıxaracağını gözləmirik", - deyə bildirilib.

## Səhiyyə naziri, vitse-spiker...

Xatırladaq ki, milliyətcə əslən azərbaycanlı olan Məsud Pezeşkian 1954-cü il sentyabrın 29-da İranın Mehabad şəhərində anadan olub. Tibb üzrə təhsil alan Pezeşkian Təbriz Tibb Elmləri Universitetinə 5 il rəhbərlik edib. İranın Tibb Elmləri Universitetində ürək cərrahiyyəsi üzrə ixtisaslaşıb.

Məsud Pezeşkian 1997-ci ildə Məhəmməd Hatəminin prezidentliyi zamanı səhiyyə nazirinin müavini vəzifəsini tutub. 2001-ci ildə nazir təyin edilib və bu vəzifəni 4 il icra edib. Daha sonra İran parlamentinə üzv seçilən Pezeşkian 2016-2020-ci illərdə o zamankı prezident Həsən Ruhani ilə əlaqəli fraksiyanı təmsil edərək parlamentin birinci vitse-spikeri vəzifəsinə seçilib.

İlk dəfə 2013-cü ildə İranda keçirilən seçkilərdə iştirak etmək arzusunu açıqlasa da, digər namizəd Əli Əkbər Haşimi Rəfsəncaninin xeyrinə öz namizədliyini geri götürüb. 2021-ci ildə prezidentliyə namizədliyini irəli sürən Pezeşkiyanın iddiası Konstitusiyanın Mühafizəçiləri Şurası tərəfindən qəbul edilməmişdi...

*MƏNSUR*

# Orbanın sülh təşəbbüsləri nəticə verəcəkmi?

*N.BAYRAMLI*

İki ildən artıqdır davam edən Rusiya-Ukrayna müharibəsi regionda böyük fəlakətə səbəb olub. Sonu görünməyən müharibə indiyə qədər həm Rusiyaya, həm də Ukraynaya xeyli zərər vurub. Belə ki, Ukraynada minlərlə mülki insan həyatını itirib, hərbçilər həlak olub, xeyli sayda infrastruktur dağıdılıb, milyonlarla insan qaçqın vəziyyətinə düşüb. Bu ölkənin ərazisinin 20 faizə yaxını hazırda Rusiya ordusunun nəzarətindədir. Müharibə Rusiya üçün də ağır nəticələrə səbəb olub. Bu günə qədər Rusiya tərəfinin döyüşlərdə yüzminlərlə hərbçisinin həlak olduğu barədə məlumatlar yayılıb.

## Kiyevdən sonra Moskvaya...

Belə bir şəraitdə bır sıra Qərb ölkələri müharibənin dayandırılması üçün yox, daha da alovlanmasına səbəb olan addımlar atırlar. Ukraynanın davamlı silahlandırılması, Kiyevə verilən müxtəlif vədlər buna xidmət edir. Tərəflər arasında sülh üçün vasitəçilik edən ölkələrin sayı isə kifayət qədər azdır. Müharibənin başladığı ilk günlərdən indiyədək Türkiyə sülh üçün müxtəlif praktiki addımlar atıb. Bundan başqa, Çin Xalq Respublikası da sülh təşəbbüsü ilə çıxış edib. Lakin bu ölkələrin təşəbbüsləri hələ də nəticə verməyib. Rusiya-Ukrayna müharibəsinin tezliklə başa çatmasını arzulayan dövlətlərdən biri də Macarıstandır. İyulun 1-də Avropa İttifaqına sədrlik etməyə başlayan bu ölkənin Baş naziri Viktor Orban Aİ-yə sədrliyin ikinci günü - iyulun 2-də Kiyevə səfər edərək Ukrayna Prezidenti Volodimir Zelenski ilə görüşüb. Viktor Orban Volodimir Zelenskiyə sülh danışıqları öncəsi atəşkəs variantını nəzərdən keçirməyi təklif edib. Macarıstanın Baş naziri bu məsələnin danışıqları sürətləndirəcəyini ehtimal etdiyini bildirib.

Macarıstanın Baş naziri Viktor Orban sülh missiyasını davam etdirmək üçün iyulun 5-də Moskvaya səfər edib. Səfər zamanı Rusiya Prezidenti Vladimir Putin və Macarıstanın Baş naziri Viktor Orban beynəlxalq məsələlər, o cümlədən Ukrayna ilə bağlı fikir mübadiləsi aparıblar. Tərəflər arasında keçirilən görüşdən sonra baş tutan mətbuat konfransı zamanı V.Putin deyib ki, Rusiyanın sülh təşəbbüslərinin həyata keçirilməsi hərbi əməliyyatları dayandırmağa və danışıqlara başlamağa imkan verərdi. Onun fikrincə, Moskva ilə Kiyev arasında müvəqqəti barışıq və ya pauza yox, münaqişənin tam və qəti sonu olmalıdır.





## Orban: Tərəflərin mövqeləri bir-birindən çox uzaqdır

Orban isə Macarıstanın Rusiya-Ukrayna münaqişəsinin sülh yolu ilə həll edilməsi üçün səylərini davam etdirəcəyini bəyan edib. Bununla belə, Orban bir həftə ərzində reallaşan Kiyev və Moskva səfərində aparılan danışıqlardan sonra tərəflərin mövqelərinin bir-birindən çox uzaq olduğu qənaətinə gəlib. Buna görə də, Avropa İttifaqının sədri olan Macarıstanın Baş naziri hesab edir ki, münaqişənin bitməsi üçün çoxlu işlər görmək lazımdır: "Vacib addımı atmışıq, əlaqələr yaradılıb, bu istiqamətdə işləri davam etdirəcəyəm".

## Kiyev Viktor Orbanın təklifini niyə qəbul etməyib?

Yeri gəlmişkən, rəsmi Kiyev Viktor Orbanın atəşkəslə bağlı təklifini qəbul etməyib. "Prezident Zelenski hesab edir ki, bu cür təşəbbüslər nizamlamanın digər aspektlərindən ayrı nəzərdən keçirilməməlidir",- deyə Ukrayna Prezidentinin aparat rəhbərinin müavini İqor Jovkva bildirib. Həmçinin, XİN bəyan edib ki, Macarıstanın Baş naziri Viktor Orbanın Moskvaya səfəri Kiyevlə razılaşmadan qəbul edilib: "Dövlətimiz üçün "Ukraynasız Ukrayna ilə bağlı heç bir razılaşma" prinsipi sarsılmaz olaraq qalır və biz bütün dövlətləri buna ciddi əməl etməyə çağırırıq. Ukrayna Macarıstanın Baş nazirinin Kiyevə səfərinin nəticələrinə görə ikitərəfli əməkdaşlığın və Avropaya inteqrasiyanın inkişafı üzrə gələcək işlərə konstruktiv şəkildə köklənib. Ədalətli dünyanı bərpa etməyin yeganə real yolu "sülh formulu" olaraq qalır".

## Sülh üçün Pekinə səfər...

Macarıstanın Baş naziri isə bu münaqişənin həllinə nail olmağa israrlıdır. Bunun səbəblərdən biri də Rusiya-Ukrayna müharibəsinin Avropa iqtisadiyyatına təsir göstərməyə başlamasıdır. Orbanın təşəbbüsləri göstərir ki, Macarıstan Avropa İttifaqına sədrliyi dövründə Avropada sülhün təmin edilməsini özünün əsas vəzifəsi hesab edir. Hətta iyulun 8-də onun Çin Xalq Respublikasına səfərində də Si Cinpin ilə görüşündə Rusiya-Ukrayna müharibəsi əsas müzakirə mövzusu olub. Orban Çini Ukrayna münaqişəsinin nizamlanması üçün əsas ölkə adlandırıb. "Çin sülh üçün şərait yaratmaqda əsas gücdür (...) Buna görə də mən Budapeştə rəsmi səfərindən cəmi iki ay sonra Pekində Sədr Si Cinpinlə görüşməyə gəldim", - deyə Orban özünün sosial şəbəkə hesabında yazıb. Çinin rəsmi mediasının yazdığına görə, liderlərin görüşündə Viktor Orban Si Cinpinə Ukraynaya və Rusiyaya son səfərləri haqqında məlumat verib. Macarıstan Baş nazirinin Ukrayna böhranının siyasi həlli istiqamətində səylərini yüksək qiymətləndirən ÇXR Sədri ölkəsinin məsələ ilə bağlı mövqeyini xatırladıb. Si Cinpin tezliklə atəşkəsin və siyasi nizamlanmanın bütün tərəflərin maraqlarına cavab verdiyini vurğulayaraq, döyüş sahəsinin genişlənməsinin qarşısını almaq, hərbi əməliyyatları artırmamaq, tərəflərin atəşi alovlandırmamaq prinsiplərinə riayət etməklə vəziyyətin sakitləşdirilməsinin prioritet olduğunu söyləyib.

Çin lideri beynəlxalq ictimaiyyəti iki tərəf arasında birbaşa dialoq və danışıqların bərpasına şərait yaratmağa, bu prosesə dəstək verməyə çağırıb. Bildirib ki, yalnız bütün böyük ölkələr mənfi deyil, müsbət enerji sərf edərsə, bu münaqişədə atəşkəs mümkün qədər tez əldə edilə bilər. "Çin sülh danışıqlarını fəal şəkildə təbliğ edir, böhranın dinc yolla həllinə töhfə verən bütün səyləri dəstəkləyir", - deyən Si Cinpin əlavə edib ki, Çin və Macarıstanın əsas mövqeləri və səyləri üst-üstə düşür. Eyni zamanda, rəsmi Pekin Macarıstanla və bütün müvafiq tərəflərlə təmasları saxlamağa hazırdır.

## Macarıstanın təşəbbüslərinə qarşı çıxanlara cavab...

Macarıstanın xarici işlər naziri Peter Siyarto da Baş nazir Viktor Orbanın "sülhməramlı missiya" çərçivəsindəki addımlarından danışıb. Bu barədə nazir feysbuk səhifəsində avropalı siyasətçilərə müraciət edib. Siyarto avropalı siyasətçilərə Baş nazir Viktor Orbanın "sülhməramlı missiyası" çərçivəsində gələn həftə gözlənilən növbəti addımlarını "təhlükəsizlik kəmərlərini bağlayıb diqqətlə izləməyi" tövsiyə edib. "Ukraynaya silah tədarük edən, oraya qoşun göndərmək xəyalı ilə yaşayan və nüvə silahından istifadə edilməsi haqqında söhbət aparan çoxsaylı "müharibə tərəfdarı olan siyasətçilər" Avropa İttifaqındakı böhranı daha da ağırlaşdırırlar", - deyə Peter Siyarto qeyd edib.

Bütün bunlar göstərir ki, V.Orban Aİ sədri olaraq Macarıstanın Rusiya-Ukrayna müharibəsinin bitməsi üçün gerçək fəaliyyət ortaya qoyur. Amma bu müharibənin davam etməsinə maraqlı olan Qərbin V.Orbanın sülh təşəbbüslərinə maneələr törədəcəyi istisna deyil.

# El sənətkarına el vəfası...

## Bu gün Aşıq Ələsgərin doğulduğu gündür...

*Şahanə MÜŞFİQ*



Azərbaycan aşıq şeirinin ən böyük nümayəndələrindən olan Aşıq Ələsgər 1821-ci ildə özünəxas təbii gözəllikləri ilə seçilən, sazın, sözün vətəni hesab olunan Göyçə mahalının Ağkilsə kəndində anadan olub. Atası Alməmməd kişi dülgərliklə məşğul olurdu, kəndin sayılıb-seçilən insanlarından idi.

Uşaq yaşlarından xüsusi təhsil ala bilməyən Ələsgər fitri istedada malik idi. O, el şənliklərində, məclislərdə, böyüklərin söhbətlərində danışılan nağılları, dastanları, rəvayətləri, hədisləri güclü yaddaşında saxlayar, sonra olduğu kimi başqalarına danışardı. El aşıqlarının məclisləri, toy-şənliklərdə oxunan el havaları onda saza, sözə maraq oyadıb, gələcək şairin, aşığın püxtələşməyində rol oynayıb. Onun ilk şeirləri də elə bu təsirlərlə yaranıb.

Oğlunun istedadını görən atası aşıq sənətinin sirlərini öyrənməsi üçün onu dövrünün məşhur söz sənətkarlarından olan Aşıq Alının yanına şəyirdliyə qoyur. Aşıq Alıdan aldığı ustad dərsləri Ələsgərin bir sənətkar kimi yetişməyində mühüm rol oynayır. Çox keçmir ki, Aşıq Ələsgərin apardığı məclislərin sorağı hər tərəfə yayılır. O, Göyçə ilə yanaşı, İrəvan, Naxçıvan, Qazax, Qarabağ, Gəncə, Kəlbəcər və digər yerlərə toy, şadlıq məclislərinə dəvət edilir. Aşıq sazı, sözü, ədəb-ərkanı ilə el-oba içində ustad sənətkar kimi böyük şöhrət qazanır.

Gənc yaşlarında sevdiyi qıza qovuşa bilməməsi onun çox gec evlənməyinə səbəb olur. Həyatı heç də asanlıqla keçməyən şairin ahıllıq dövrü isə daha çətin və məşəqqətli hadisələrə tuş gəlir. Yaşadığı çətinliklər, bədbəxt hadisələr onun şair ürəyini bədbin hisslərlə doldurur. Onun sənətkar ürəyi elə tutulur ki, bir daha əlinə saz alıb çala bilmir.

Bu da azmış kimi, erməni daşnakları-nın şairin vətəni Göyçədə törətdiyi qırğınlar ona çox böyük mənəvi ağrı yaşadır. Bu qırğınlar nəticəsində Aşıq Ələsgər doğma el-obasından köçkün düşməyə də məcbur qalır və ailəsi ilə birlikdə Kəlbəcərin Yanşaq kəndinə, oradan da Tərtərə köçür. İki il sonra doğma el-obasına qovuşan aşıq 1926-cı ildə ömrünü burada tamamlayır.

Aşıq Ələsgərin zəngin irsi vəfatından bir əsrə yaxın zaman keçməsinə baxmayaraq, bu gün də sevilərək oxunur, el şənliklərini bəzəyir. Onun yaradıcılığı bədahətən söylədiyi gəraylı, qoşma, təcnis, deyişmə, ustadnamə, müxəmməs və digər janrlardakı əsərlərdən ibarətdir. Şeirlərində başlıca yeri məhəbbətin tərənnümü, gözəllərin vəsfi, təbiət gözəlliklərinin təsviri, əxlaqi-tərbiyəvi fikirlərin təbliği, ictimai eyiblərin tənqidi tutur.

Dövrünün savadlı şəxslərindən biri olan Aşıq Ələsgər bir çox dünya elmləri ilə yanaşı, İslamı da dərindən bilən birisi kimi ad qoyub və bu sahəyə öz yaradıcılığında geniş yer verib:

*Ələsgər xümsünən zəkatın verə*
*Əməlin mələklər yaza dəftərə,*
*Hər yanı istəsə, baxanda görə,*
*Təriqətlə bu sevdalı gərəkdi*

-deyən Dədə Ələsgər öləcəyi günü belə bir gün öncədən öz yaxınlarına xəbər verib. Yaradıcılığında nəsihətamiz şeirlərə geniş yer verən Aşıq Ələsgər xalq tərəfindən sevib sevilən el ağsaqqalına çevrilib.

Aşıq Ələsgərin yaradıcılığında nəsihətlərin əks olunduğu şeirlər - ustadnamələr mühüm yer tutur. Aşığın əxlaqi-tərbiyəvi mövzuda olan "Gərəkdi", "Olmaz" şeirləri xalq müdrikliyini, sənətkarın böyük həyat təcrübəsini əks etdirir:

*Bu dünyanı mən təcrübə eylədim,*
*Namərd körpü salsa, onda ad olmaz.*
*Bir mərd ilə ağı yesən, şirindi,*
*Yüz namərdlə şəkər yesən, dad olmaz.*

Təkcə Azərbaycan ədəbiyyatında deyil, həmçinin, Azərbaycan aşıq sənətində də mühüm yer tutan Aşıq Ələsgərin yaratdığı hər misra, hər beyt, hər bənd dillər əzbəridir. Cəmiyyətin, həyatın bütün motivlərini, bütün detallarını öz yaradıcılığında layiqincə əks etdirməyi bacaran şairin könül pıçıltıları sanki hər mövzudan xəbər verirmişcəsinə misal çəkildiyi bütün mövzularda, bütün nüanslarda çox uğurlu tapıntıya çevrilir. Sanki bir atalar sözü, el məsəli kimi dildən-dilə, ağızdan-ağıza dolaşaraq illər, əsrlər adlayır. Öz zəngin yaradıcılığı, bədii irsi ilə aşıq sənətində nadir sənətkarlıq məktəbi yaratmış Aşıq Ələsgər əsərləri durduqca var olacaq.

# Seyid Əzim Şirvanini niyə öldürmüşdülər?

*Yeganə BAYRAMOVA*



Onun realist şeir yaradıcılığında "Əkinçi" qəzetinin mühüm rolu olub. Yazdığı şeirlərinin böyük əksəriyyətində xalqı qəflət və cəhalət yuxusundan oyatmağa çağırırdı. Seyid Əzim Şirvani milli poeziyamızın inkişaf tarixində incə ruhlu, lirik, cəmiyyətin sosial bəlalarını cəsarətlə tənqid edən satirik, əxlaqi-tərbiyəvi mənzum hekayələr və təmsillər müəllifi, ədəbiyyatşünas-təzkirəçi kimi məşhurdur.

**Aşiqanə qəzəlləri daha çoxdur...**

Bu gün zəngin yaradıcılığı ilə adını Azərbaycan ədəbiyyatı tarixinə yazmış şairin anadan olmasından 189 il ötür. Əsərləri içərisində müxtəlif Şərq mənbələrindən etdiyi tərcümələr, Sədi, Hafiz və Məhəmməd Füzuli şeirlərinə yazdığı nəzirələr də var. Lakin bunlar şairin zəngin bədii irsi içərisində az yer tutur. Seyid Əzim Şirvani yaradıcılığının çox hissəsi lirik janrda yazılmış original əsərlərdən ibarətdir ki, bunların da çoxu qəzəllərdir. Şairin qəzəllərində həyat sevgisi, nikbin əhval-ruhiyyə, dini etiqad xüsusi yer tutur. Onun aşiqanə qəzəlləri daha çoxdur. Müəllifin şeirə hərarət və can verən dərin lirikasını məhz bu qəzəllərdə görmək olur.

Seyid Əzim Şirvani yaradıcılığının ikinci mərhələsi onun maarifçi və tənqidi-satirik şeirlərilə başlayır ki, artıq bu zamandan etibarən onun yaradıcılığında realizm üstünlük təşkil edir.

**18 illik əziyyətin sonu...**

19-cu əsrin sonlarına doğru Seyid Əzim Şamaxıda yeni üsulla "Məclis" adlı bir məktəb açır. Seyid Əzimin bu məktəbində köhnə mollaxanalardan fərqli olaraq, şagirdlərə Azərbaycan, rus, fars dilləri öyrədilir və müasir elmlərdən ibtidai məlumat verilirdi. Seyid Əzim bütün maddi və mənəvi çətinliklərə baxmayaraq, 18 ildən artıq öz məktəbində müəllimlik edib. Nəhayət, bir tərəfdən mövhumatçıların və ruhanilərin müxtəlif bəhanələrlə ona qarşı hücuma keçmələri, digər tərəfdən də o zaman Şamaxıda dövlət tərəfindən açılan şəhər məktəbinin təsiri nəticəsində həmin məktəb fəaliyyətini dayandırmağa məcbur olur.

**Onu sevməyənlərin sayı hər gün artırdı**

1879-cu ildə Seyid Əzimin "ipə-sapa yatmazlığından" cana doymuş hökumət nümayəndələri ilə ruhanilərin işbirliyi sayəsində müəllimlikdən kənarlaşdırılır. Lakin bəzi maarifpərvər insanların səyləri sayəsində Seyid Əzimi müəllimliyə qaytarmaq mümkün olur. Seyid Əzim maarifçi və tənqidi-satirik şeirlərilə mövhumatı, nadanlığı qamçılayır, bu səbəbdən də mövhumatçı dindarların kəskin müqaviməti ilə üzləşirdi, "Əkinçi"də yazmağa başladığıdan sonra isə nadan dairələrdə onu sevməyənlərin, ona düşməncəsinə münasibət bəsləyənlərin sayı daha da artdı.

**Ölümü barədə müxtəlif iddialar...**

Seyid Əzimin ölümü haqqında yazarkən bir qayda olaraq, "1888-ci il mayın 20-də Şamaxıda vəfat edib" cümləsi ilə kifayətlənirlər. Halbuki onun 53 yaşında qəfil ölümü ilə bağlı iddialardan biri sui-qəsd nəticəsində dünyasını dəyişməsi ilə bağlıdır.

Böyük maarifçinin məscid qapısında yaradılan süni basabasda öldüyü də deyilir. Bir variantda isə onun möhvumatçı insanlar tərəfindən qətlə yetirildiyi söylənir. Ancaq birinci ehtimal daha geniş yayılıb.

# Makron bu dəfə də uduzdu...

## Fransada parlament seçkilərinin nəticələri iğtişaşlara səbəb olub




*Nardar BAYRAMLI*

Fransada iyulun 7-də keçirilən növbədənkənar parlament seçkilərinin ikinci turunda Jan-Luk Melanşonun başçılıq etdiyi solçu "Yeni xalq cəbhəsi" koalisiyası qalib gələrək Milli Assambleyada 182 mandat qazanıb. Bu barədə Fransa Daxili İşlər Nazirliyi məlumat yayıb. Seçkilərin nəticələrinə görə, ikinci yeri tutan Emmanuel Makronun "Birlikdə" koalisiyası parlamentin aşağı palatasında 168 yerə, üçüncü yeri tutan Marin Le Penin "Milli birlik" partiyası isə 143 yerə sahib olub. İkinci turda 200 nəfərin namizədliyini geri götürməsi ifrat sağçıların məğlubiyyətinin əsas səbəbidir.

Sol blokun lideri Jan-Luk Melanşon tərəfdarlarına müraciətində Fransa Prezidenti Emmanuel Makronun seçkilərdə məğlubiyyətini etiraf etməli olduğunu bildirərək, ölkənin hazırkı Baş naziri Qabriel Attalı istefaya çağırıb. O, həmçinin solçu koalisiyaya yeni kabinet formalaşdırmağa icazə verilməli olduğunu vurğulayıb. Emmanuel Makronun koalisiyası ilə ittifaqı istisna edən siyasətçinin sözlərinə görə, solçular yeni hökumətdə öz siyasi proqramlarını həyata keçirməyə hazırdır.

Qeyd edək ki, növbədənkənar parlament seçkilərinin ikinci turu 441 seçki dairəsində keçirilib. Fransa parlamenti 577 deputatdan təşkil olunur. Parlamentdə çoxluğu əldə etmək istəyən partiyaya 289 mandat kifayət edir. Fransada seçkilər majoritar sistem üzrə iki turda keçirilir.

Solçu blokun qələbəsi Fransada qeyri-sabit parlament problemi və yeni hökumətin formalaşdırılması prosesində danışıqların uzadılması ilə bağlı müəmmalı vəziyyət yaradıb. "Reuters" agentliyinin yazdığına görə, seçkilərin nəticələri Prezident Emmanuel Makrona da ağır zərbə olub və Avropa zonasının ikinci böyük iqtisadiyyatını durğunluq vəziyyətinə sürükləyir, eyni zamanda, Paris Olimpiadasına bir neçə həftə qalmış ölkədə baş verəcək siyasi qeyri-sabitliyin xəbərçisidir. Fransa prezidenti son nəticədə parçalanmış parlament sindromu əldə edib, bu isə ölkənin Avropa İttifaqında və onun hüdudlarından kənarda mövqeyini zəiflədəcək, həmçinin daxili gündəlikdə duran məsələlərin həllində çətinliklər yaradacaq.

Beləliklə, Milli Assambleya üç böyük qrupa bölünüb: müxtəlif platformalarla sol, mərkəzçi və həddindən artıq sağ qanadlar. Əsas siyasi qüvvələrdən heç biri mandatların mütləq əksəriyyətini almadığına görə yeni hökumətin formalaşdırılması çətin olacaq.

Səsvermə ilə bağlı proqnozlar açıqlandıqdan sonra bazar günü avro ucuzlaşıb. Sol ittifaq yanacaq və ərzaq kimi vacib malların qiymətlərini məhdudlaşdırmağı, minimum əmək haqqını və dövlət sektoru işçilərinin əmək haqqını yüksəltməyi hədəfləyir. Fransanın büdcə kəsiri isə artıq istehsalın 5,5 faizini təşkil edir ki, bu da qaydaların Aİ-nin icazə verdiyi səviyyəsindən yüksəkdir. "Capital Economics" nəşri qeyd edib ki, parçalanmış parlament Fransanın Aİ büdcə qaydalarına riayət etməsində lazım olan büdcə kəsirlərini qüvvəyə mindirmək sahəsində hansı bir hökumət üçün çətin olacaq. "Fransa hökuməti ilə Aİ arasında maliyyə siyasəti ilə bağlı toqquşma ehtimalı artıb", -deyə nəşr vurğulayıb.

Yeri gəlmişkən, ötən gün Fransanın Baş naziri Qabriel Attal Emmanuel Makrona istefa ərizəsini təqdim edib. Lakin dövlət başçısı Baş nazirin istefasını qəbul etməyib. Attal növbədənkənar parlament seçkilərinin ilkin nəticələri açıqlandıqdan sonra bu qərara gəlib.

Bu arada "Yeni xalq cəbhəsi" solçu koalisiyasının Fransa Milli Assambleyasına növbədənkənar seçkilərdə qalib gəlməsindən sonra iyulun 8-nə keçən gecə ölkəni iğtişaşlar bürüyüb. Bütün Fransada keçirilən müxtəlif nümayişlər zamanı azı onlarla şəxs həbs edilib, bir neçə polis əməkdaşı yaralanıb. Həbslər Renn şəhərində antifaşist şüarların səsləndirildiyi Müqəddəs Anna meydanında insanların toplantısı zamanı baş verib. Nantda isə polisin iğtişaşlara nəzarət etmək üçün gözyaşardıcı qazdan istifadə etdiyi şəhər mərkəzində minə yaxın adamın iştirakı ilə keçirilən nümayiş zamanı bir polis maşını alışan kokteyl atılması nəticəsində ikinci dərəcəli yanıqlar alıb. Buna cavab olaraq etirazçılar polisə fişənglər və butulkalar atmağa başlayıblar. Aksiya iştirakçıları mağaza və kafeləri, avtobus dayanacaqlarını dağıtmağa başlayıblar. Paytaxt Paris şəhərində də polislərlə etirazçılar arasında ciddi toqquşmalar baş verib.

"Yeni xalq cəbhəsi" tərəfdarlarının Jan Jores meydanında toplaşdığı, təhlükəsizlik qüvvələri ilə də toqquşmaların yaşandığı Marsel küçələrinə daha 5 min adam çıxıb. Bundan əlavə, Lion küçələrində çoxsaylı vandalizm və qarət faktları qeydə alınıb. Görünən odur ki, Makron hakimiyyəti Fransanı rəzil duruma salıb.

# Gələcəkdən göndərilmiş yazıçı: Ayzek Azimov

Ayzek Azimov elmi fantastika janrında yazan dünya miqyaslı üç ən böyük yazıçıdan biridir. O, bu istiqamətli digər məşhur yazıçılar - Robert Haynlayn və Artur Klarkla bir sırada hər zaman öz yerini qoruyub saxlayıb.

Azimov dünyada ABŞ yazıçısı kimi tanınır. Uzun müddət Birləşmiş Ştatların ən böyük universitetlərində dərs deyib, biokimya professoru kimi mühazirələr oxuyub, bütün ömrünü elmin kütləviləşməsinə sərf edib. Alimin "Elm və elmi ixtiralar tarixi", "Kimyanın qısa tarixi", "Mən Robotam", "Sözlərin tarixi" kimi əsərləri elmin populyarlaşmasına və kütləviləşməsinə təkan verib. Ayzek Azimov 500-ə qədər əsərin müəllifidir. Lakin yazıçı dünyada şöhrətin zirvəsini elmi fantastika janrında yazdığı "Təməlçilər", "Kosmik axınlar", "Marsılıların yolu", "Ölü planet", "Zamandan qaçış", "Qızıl qalaktika" kimi romanları ilə fəth edib. Bu əsərlərdə Azimov bəşəriyyətin gələcəyi ilə bağlı bir sıra elmi proqnozlar verib, elmi fərziyyələr irəli sürüb.

Ayzek Azimovun əsərlərində yaratdığı və ilk dəfə istifadə etdiyi terminlər sonradan bütün dünya elmində işlək funksiya qazanıb. Məsələn, "robotexnika", "psixotarix" kimi terminlər ilk dəfə onun əsərlərindən çıxaraq universitetlərdə, laboratoriyalarda istifadə olunub.

## Bakıdan Rusiyaya, oradan da ABŞ-a köçən Azimovlar

Maraqlıdır ki, sovet dövründə ayzekşünaslıq geniş yayılmışdı. Araşdırmaçılar onun elmi-kütləvi və elmi- fantastik əsərlərini geniş tədqiq edirdilər. Lakin bu araşdırmaçı qrupu nədənsə onun şəxsi həyatı haqqında çox vaxt dəqiq məlumatlar vermirdi. Söhbət həm də Ayzek Azimovun bakılı olmasından, yaxud Azərbaycanla bağlılığından gedir.

Bildiyimiz kimi, Ayzek Azimov yəhudi ailəsində dünyaya göz açıb. O zamanlar Bakıda və Azərbaycanın bir sıra başqa yerlərində yaşayan yəhudilərin müəyyən qismi ölkəni tərk edərək Rusiyaya, yaxud Avropa ölkələrinə üz tuturdular. Nobel mükafatı almış böyük fizik Lev Landaunu, kəşfiyyatçı Rixard Zorgeni buna misal göstərə bilərik. Ayzekşünasların ötən əsrin 80-ci illərində dərc etdirdikləri bəzi araşdırma yazılarında Ayzek Azimovun ata-anasının Azərbaycandan olduğu göstərilir.

Bakıdan Rusiyaya köçən Azimovlar orada çox yaşamır, Rusiyadan ABŞ-a mühacirət edirlər. Burada Ayzek Kolumbiya universitetini bitirir, Boston Universitetində elmi məşğul olmağa başlayır. 1979-cu ildə bu universitetin professoru seçilir. 1983-cü ildə keçirdiyi cərrahiyyə əməliyyatından sonra ağır xəstəliyə tutulan yazıçı 1992-ci ildə Nyu-Yorkda vəfat edir.

Yazıçının gələcək texnoloji həyat haqqında verdiyi proqnozların bir qismi artıq reallaşıb. Bu proqnozlar arasında ən önəmli beş kəşfi göstərə bilərik.

## Düz ekranlı televizor

1964-cü ildə Nyu-York Ümumdünya Sərgisini ziyarət etdikdən sonra Azimov "2014-cü ilin Ümumdünya Sərgisində" adlı essesində qalın televizorların divar ekranları ilə əvəzləndiyi bir dünyanı təsvir edir. İllər keçdi, bu proqnoz özünü doğrultdu. İndi biz hər yerdə divara bərkidilən monitorları və düz ekran panellərini görürük. Üstəlik, proqnozun ikinci hissəsi də - Azimovun əvvəlcədən söylədiyi kimi, fotoşəkillərə və mətnlərə baxa biləcəyiniz smartfonlar da reallığa çevrildi.



## Görüntülü zəng

Azimov yazırdı ki, gələcəkdə ünsiyyət audiovizual olacaq və zəng edilən şəxsi canlı görmək mümkün olacaq: "Yer üzünün istənilən yerinə, o cümlədən Antarktidadakı meteoroloji stansiyalara zəng etmək mümkün olacaq". Artıq bu kimi fikirlər heç kimi təəccübləndirmir, çünki bunların hamısı reallaşıb və günümüzdə istifadə olunur.

## Səhralarda günəş elektrik stansiyaları

Azimov gələcəkdə səhra və yarımsəhra ərazilərdə işləyən böyük günəş elektrik stansiyalarının olacağını da proqnozlaşdırmışdı. Bildiyimiz kimi, artıq günəş enerjisini elektrik enerjisinə çevirmək üçün nəhəng qurğular ixtira edilib. Bu qurğular ABŞ-ın Moxave səhrasından Afrikanın nəhəng Sahara səhrasına qədər mövcuddur.

Həmin "günəş fermaları" ekoloji cəhətdən təmiz və bərpa olunan enerji istehsalı üçün quru ərazilərdəki bol günəş işığından istifadə edir. Belə komplekslər arasında, məsələn, Mərakeşdə yerləşən dünyanın ən böyük günəş elektrik stansiyası "Nour-Ouarzazate"ni qeyd etmək olar.

## Robot cəmiyyəti

Hələlik küçələrdə robotların gediş-gəlişinin adi hala çevrildiyi bir dünyada yaşamasaq da, Azimov bir sıra əsərində robotların çoxalacağını və onların çoxlu problemlər yaradacağını bildirib.

Sözsüz ki, bugünkü robotlar böyük fantastın əsərlərində təsvir etdiyi robotlardan hələlik uzaqdır. Lakin robotexnikanın sürətli inkişafını nəzərə alsaq, Azimovun təsvir etdiyi robot dünyasının yavaş-yavaş formalaşacağını təsəvvür eləyə bilərik. Məsələn, artıq tibbi cərrahiyyə sahəsində robotların xidmətindən istifadə xeyli genişlənib. Yəni, artıq çətin tibbi əməliyyatlar robotlar uğurla icra edir.

Bundan başqa, robotlar zavodlarda, ağır və yüngül sənaye müəssisələrində, hətta muzeylərdə bələdçi kimi uğurla fəaliyyət göstərir. Böyük ehtimalla, çox da uzaq olmayan gələcəkdə Azimovun yüksək dərəcəli ixtisaslaşmış ağıllı robotlar ideyası gündəlik həyatımızın bir hissəsinə çevriləcək. Bax onda insanlar üçün əməlli-başlı ciddi problemlər yaranacaq.

## Marsa pilotsuz kosmik uçuş

Ayzek Azimovun gerçəyə çevrilmiş daha bir ideyası Marsa pilotsuz kosmik gəminin göndərilməsidir. Qırmızı planetə göndərilən çoxsaylı robot missiyaları sayəsində bu proqnoz özünü dəfələrlə doğrultdub.

Ayzek Azimovun ideyaları reallığa çevrildikcə tədqiqatçıları onun haqqında maraqlı fikirlər səsləndirir, onu gələcəkdən göndərilmiş adam adlandırırlar.

*Murad Köhnəqala*

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“Pressİnform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Qasid” MMC - 0124931406, 0124938343
F.Ş.Ruhid Hüseynov - 0124349301, 0505357898
“Türküstan Media Group” MMC – 050 241-48-23
“Region Press” MMC – 055 316-79-01
“Ziya LTD” MMC - 0124977696, 0503067744

**6 aylıq abunə - 79,20 AZN**
**12 aylıq abunə - 158,40 AZN**




## Diplomatik xidmət orqanları əməkdaşlarının bayramıdır



# 105 yaşlı diplomatiyamız...

*Yeganə BAYRAMOVA*

Bu gün ölkəmizdə diplomatik xidmət orqanlarının yaradılmasından 105 il ötür. Məlumdur ki, 1918-ci il mayın 28-də yaradılan Azərbaycan Xalq Cümhuriyyəti (AXC) müsəlman Şərqində ilk demokratik respublika olmaqla yanaşı, xalqımızın tarixində mühüm bir hadisə idi. Bu tarixi hadisədən təxminən 1 il sonra, 1919-cu il iyulun 9-da AXC-nin Hökuməti Xarici İşlər Nazirliyinin Katibliyinə dair müvəqqəti təlimat qəbul etdi. Beləliklə, AXC beynəlxalq aləmdə ilk addımlarını atmağa başladı.

Azərbaycan diplomatiyası ilk addımlarını atarkən- 1919-cu ildə Bakıda 16 xarici dövlətin, o cümlədən ABŞ, Böyük Britaniya, Fransa, İtaliya, İsveç, İsveçrə, Belçika, İran, Polşa və Ukraynanın diplomatik nümayəndəlikləri fəaliyyət göstərirdi. 1920-ci il yanvarın 11-də Paris Sülh Konfransında AXC-nin müstəqilliyi de-fakto tanınandan sonra Azərbaycan hökuməti tərəfindən Qərbi Avropa və Amerikada Azərbaycanın diplomatik nümayəndəliklərinin təsis edilməsinə dair qanun layihəsi hazırlandı.

1922-ci il dekabrın 30-da isə Moskvada Birinci Ümumittifaq Sovetlər qurultayında SSRİ-nin yaradılması haqqında müqavilə imzalandı. Beləliklə, Azərbaycanın müstəqil xarici siyasət fəaliyyəti tamamilə dayandırıldı. 1923-cü il oktyabrın 8-də Azərbaycan SSR Xalq Komissarları Sovetinin 529 saylı əmrinin birinci paraqrafı ilə Türkiyə və İran istisna olmaqla, Azərbaycanda fəaliyyət göstərən bütün diplomatik nümayəndəliklər ləğv edildi.

Yalnız İkinci Dünya müharibəsinin sonlarına yaxın- 1944-cü ildə sovet hakimiyyəti özünün geniş strateji maraqlarını əsas götürərək digər respublikalarla yanaşı, Azərbaycan SSR Xalq Xarici İşlər Komissarlığını da yaratdı. Lakin bu orqan uzun illər boyu yalnız formal mövcud oldu. 1991-ci il oktyabrın 18-də Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra bir-birinin ardınca dünya dövlətləri və BMT tərəfindən tanındı.

1993-cü ildə Heydər Əliyev hakimiyyətə qayıtdıqdan sonra bütün sahələrdə həyata keçirilən milli dövlətçiliyin qurulması prosesi Xarici İşlər Nazirliyi sistemini də əhatə edirdi. O, Azərbaycanın xarici siyasətinin strateji ana xəttinin konturlarını cızmışdı. Heydər Əliyev tərəfindən formalaşdırılan xarici siyasət strategiyası ilk növbədə respublikamızın milli maraqlarının aydın və dəqiq şəkildə müəyyən edilməsini, bərabərhüquqlu, daxili işlərə qarışmamaq və qarşılıqlı faydalı əməkdaşlıq prinsipləri əsasında qonşu dövlətlər və dünya birliyi ilə mehriban münasibətlərin qurulmasını ehtiva edirdi.

Bu gün Prezident İlham Əliyev sürətlə dəyişən dünyada, qloballaşma və inteqrasiya proseslərində, bütün beynəlxalq görüşlərdə və apardığı yüksək səviyyəli danışıqlarda Azərbaycanın mənafelərini uğurla müdafiə edir. 2003-cü ildən başlayaraq, o cümlədən son on altı il ərzində xarici siyasət sahəsində böyük uğurlar əldə edilib. Xüsusilə qeyd etmək lazımdır ki, Azərbaycanla əməkdaşlıq etmək istəyən ölkələrin sayı artıb, nüfuzlu beynəlxalq təşkilatlarla əməkdaşlıq genişlənib. Azərbaycan 2004-cü ildə əsas məqsədi Cənubi Qafqaz dövlətlərinin siyasi, iqtisadi cəhətdən Avropa dəyərlərinə yaxınlaşmasını sürətləndirməkdən ibarət olan “Avropa qonşuluq siyasətinə” qoşulub. 2006-cı ildə Azərbaycan ilə Avropa İttifaqı arasında enerji məsələləri üzrə strateji tərəfdaşlığa dair anlaşma memorandumu imzalanıb. Ölkəmizin 2008-ci ildə Avropa İttifaqının “Şərq tərəfdaşlığı” proqramına qoşulması ilə bu siyasi, iqtisadi əməkdaşlıq daha da genişlənib və keyfiyyətcə yeni mərhələyə qədəm qoyub. Bununla yanaşı, 2011-ci il oktyabrın 24-də Azərbaycan 2012-2013-cü illər üzrə BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvlüyünə keçirilən seçkilərdə BMT-yə üzv olan 193 dövlətdən 155-nin dəstəyi ilə inamlı qələbə qazanıb.

Hazırda regionda və dünyada baş verən əsas iqtisadi, siyasi və mədəni proseslərdə dövlətimiz layiqincə təmsil olunur, öz mövqeyini bildirir və mənafelərini qoruyur. Ölkə daxilində gedən demokratik proseslər və iqtisadi yüksəlişlə yanaşı, uğurlu xarici siyasət bu gün dünyanın aparıcı dövlətlərinin, nüfuzlu beynəlxalq təşkilatların diqqətini Azərbaycana yönəldir. Bu da beynəlxalq hüquq normalarına uyğun qarşılıqlı faydalı əməkdaşlığın yaranmasına və inkişafına əlverişli zəmin yaradıb.

Ölkəmizin ev sahibliyi etdiyi beynəlxalq əhəmiyyətli mühüm tədbirlər Azərbaycanın dünyada nüfuzunu xeyli yüksəldib. Azərbaycan regionda yeni əməkdaşlıq formatlarının əsas təşəbbüskarı kimi çıxış edir. Dövlət başçısının bütün səyləri regionun inkişafına və sabitliyin qorunub saxlanılmasına yönəlib.

Bu gün Azərbaycan regionun yeganə ölkəsidir ki, düşünülmüş və milli maraqlara söykənən xarici siyasəti ilə regional təhlükəsizliyin təmin olunması istiqamətində ardıcıl və sistemli addımlar atır. 105 illik tarixi olan Azərbaycan diplomatiyası müasir dövrdə çox uğurla və dinamik şəkildə Prezident İlham Əliyev tərəfindən inkişaf etdirilir. Tarixi nailiyyətlərlə zəngin olan bu uğurlu xarici siyasətin təməlində milli maraqlarımızın hər zaman üstün tutulduğunu əminliklə söyləmək olar.



## Gimnastlarımız İtaliyadakı turniri 3 qızıl və 1 gümüş medalla başa vurublar

Azərbaycanın idman gimnastları İtaliyanın Turin şəhərində keçirilmiş akrobatika gimnastikası üzrə “Turin Acro Cup” beynəlxalq turnirində 3 qızıl və 1 gümüş medal qazanıblar.

AZƏRTAC xəbər verir ki, Ağasif Rəhimov və Seyidli Raziyə (qarışıq cütlük), Daniel Abbasov və Murad Rəfiyev (kişi cütlüyü), Nəzrin Zeyniyeva, Anahita Bashiri və Zəhra Rəşidova (13-19 yaş kateqoriyası üzrə qadın qrupu) fəxri kürsünün ən yüksək pilləsinə qalxıblar.

Riad Səfərov, Abdulla Əl-Məşayxi, Rəsul Seyidli və Seymur Cəfərovdan ibarət kişi qrupu isə ikinci yeri tutub.




## Üçüncü Dünya “Ədalətli Oyun” fotomüsabiqəsinə start verilib

Türkiyə Milli Olimpiya Komitəsinin (TOK) Ədalətli Oyunlar Komissiyası üçüncü Dünya “Ədalətli Oyun” fotomüsabiqəsinə start verib.

Azərbaycan Milli Olimpiya Komitəsinin (MOK) Ədalətli Oyunlar Komissiyasından AZƏRTAC-a verilən məlumata görə, müsabiqə üçün şəkillər 2024-cü il dekabrın 31-dək qəbul ediləcək. Müsabiqədə həvəskar və peşəkar fotoqraflar “Ədalətli Oyun” mövzusunda fotolarını təqdim etməlidirlər. Əvvəllər nəşr olunan və ya nümayiş etdirilən, müsabiqəyə verilən fotoşəkillər qəbul olunmayacaq.

Təqdim olunan fotolar iştirakçının özünə aid olmalıdır. Tamamilə və ya qismən digər mənbələrdən olan şəkillərin istifadəsi zamanı müəllif hüquqlarının pozulması halları ilə əlaqədar hüquqi məsələlər üzrə məsuliyyəti iştirakçı daşıyacaq.

Şəkil müsabiqəyə təqdim edilərkən iştirakçı və ya təmsil etdiyi qurum barədə məlumat (ad soyad, telefon və e-mail) qeyd olunmalıdır.

Qaliblər 2025-ci il fevralın 16-da Türkiyə Olimpiya Komitəsinin rəsmi saytı vasitəsilə (www.olimpiyat.org) elan olunacaq.




İlk 5 yerin sahibləri “Ədalətli Oyunlar” lövhəsi, iştirak sertifikatı və pul mükafatı ilə təltif ediləcəklər. Bundan başqa, münsiflər heyəti tərəfindən təyin ediləcək 30 şəkil TOK 3-cü Dünya “Ədalətli Oyunlar” fotomüsabiqəsinin albomunda dərc olunacaq.

Fotolar dekabrın 31-dək müsabiqə katibliyinin e-mail ünvanına (info@olimpiyat.org.tr) təqdim edilməlidir.



## Dünya Kuboku: Azərbaycan gimnastı qızıl medal qazanıb

Azərbaycanın idman gimnastı Mixail Malkin Portuqaliyanın Koimbra şəhərində keçirilən batut gimnastikası və tamblinq üzrə Dünya Kubokunda qızıl medal qazanıb.

Azərbaycan Gimnastika Federasiyasından AZƏRTAC-a verilən məlumata görə, idmançı tamblinq növündə fəxri kürsünün ən yüksək pilləsinə qalxıb.

Digər idman gimnastımız Tofiq Əliyev isə yarışı 4-cü pillədə bitirib.

## Cüdoçularımız Avropa Kubokunu bir medalla başa vurublar

Azərbaycanın gənc cüdoçuları Çexiyanın paytaxtı Praqa şəhərində keçirilmiş Avropa Kubokunu bir medalla başa vurublar.

AZƏRTAC xəbər verir ki, yeganə mükafatı 90 kiloqram çəki dərəcəsində çıxış edən Aslan Kotsoyev qazanıb. O, fəxri kürsünün üçüncü pilləsinə qalxıb.

Qeyd edək ki, Azərbaycan millisi yarışda 6 çəki dərəsində 14 cüdoçu ilə təmsil olunub.




## Azərbaycan parabadmintonçusu beynəlxalq turnirdə iki medal qazanıb




Azərbaycan parabadmintonçusu İbrahim Əliyev Uqandanın paytaxtı Kampala şəhərində keçirilmiş beynəlxalq turnirdə iki medal qazanıb.

Azərbaycan Badminton Federasiyasından AZƏRTAC-a verilən məlumata görə, dünya reytinqində 14-cü olan, Avropada isə “Top-5”də qərarlaşan idmançı şəxsi yarışda A qrupunu lider başa vuraraq pley-offa yüksəlib. 1/4 və yarımfinal görüşlərində də qələbə qazanan Azərbaycan təmsilçisi finalda hindistanlı Jatin Azada 0:2 (14-21,16-21) hesabı ilə uduzub.

O, kişilərin qoşa yarışında da qızıl medalın bir addımlığında məğlub olub.

Qrupda 2 qələbə qazanaraq yarımfinala yüksələn İbrahim Əliyev-Karan Paneer (Hindistan) cütü burada 3 setin yekununda Hindistan təmsilçilərinə qalib gələrək finala yüksəlib. Həlledici qarşılaşmada Jatin Azad-Abhijeet Sakhuja (Hindistan) tandemi ilə baş tutan görüş də gərgin mübarizə şəraitində keçərək 3 set davam edib - 17-21, 21-18, 10-21.

Qeyd edək ki, İbrahim Əliyev Dünya Badminton Federasiyasının illik təqvimində yer alan “Uganda Para Badminton International” turnirində ardıcıl olaraq üçüncü il mükafatçılar sırasında yer alıb. O, 2022-2023-cü illərdə şəxsi yarışlarda bürünc, qoşa yarışlarda isə gümüş medal qazanıb.


Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

**www.yeniazerbaycan.com**
**mail@yeniazerbaycan.com**
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
**598-37-76, 498-82-21**
**498-81-24, 498-19-84**

**İndeks: 67100**
**Lisenziya: N-B-317**
**Tiraj: 4199**
**Sifariş: 1539**
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

**Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova